

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Güc və birliyin qələbəsi



4

SƏS

№ 188 (6871)

14 oktyabr 2023-cü il.
Qiymәti 60 qәpik

# İLHAM ƏLİYEV - Xarizmatik Lider, Fateh Sərkərdə!



8

# "Azərbaycan MDB-nin bir çox ölkələri üçün etibarlı tərəfdaşdır"

Azərbaycan Prezidenti İlham Əliyev Bişkekdə keçirilən MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edib



2

## Demarş, yoxsa HAY HƏYASIZLIĞI?



6

## "Azərbaycan ərazisi rəqəmsal radio yayımla əhatə olunacaq"



10

## 90 yaşlı Məmməd Arazla yolayrıcında...



12

## Görünməz qəhrəmanlar: kənd qadınları



15

## "WhatsApp" yazışmaları hansı halda məhkəmədə sübut kimi təqdim edilə bilər?



16

# "Azərbaycan MDB-nin bir çox ölkələri üçün etibarlı tərəfdaşdır"

## Azərbaycan Prezidenti İlham Əliyev Bişkekdə keçirilən MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edib




***Dünən Bişkekdə Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib. Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşılayıb. Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilib.***

Daha sonra Qırğızıstan Prezidenti Sadır Japarov çıxış üçün sözü Azərbaycan Prezidenti İlham Əliyevə verib. Prezident İlham Əliyev iclasda çıxış edərək qeyd edib ki, Qırğızıstan və Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir:

"Hörmətli Sadır Nurqojoyeviç, hörmətli dövlət başçıları. Əvvəlcə, qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğızıstan Prezidenti Sadır Nurqojoyeviç Japarova təşəkkür etmək istərdim.

Şadam ki, Qırğızıstan və Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri uğurla inkişaf edir. Dövlət başçılarının qarşılıqlı səfərləri zamanı əldə olunmuş razılaşmalar yerinə yetirilir. Azərbaycan Qırğızıstanda investisiya layihələrini həyata keçirməyə başlayıb. Əməkdaşlığı dərinləşdirmək məqsədilə Azərbaycan-Qırğızıstan İnvestisiya Fondu yaradılıb. Fürsətdən istifadə edərək Qırğızıstan rəhbərliyini ölkənin sosial-iqtisadi inkişafında uğurları münasibətilə təbrik etmək istərdim.













Rusiya Federasiyasının növbəti ildə MDB-də sədrliyinin həyata keçirilməsində hörmətli Vladimir Vladimiroviç Putinə uğurlar diləmək istərdim. Tədbirimizin əlamətdar hadisəsi Özbəkistan Prezidenti, hörmətli Şavkat Miromonoviç Mirziyoyevin MDB-nin Fəxri Nişanı ilə təltif edilməsidir. Şavkat Miromonoviç bu layiqli mükafata görə təbrik edirəm. Qardaş Özbəkistanla bağlı olan digər mühüm hadisə Səmərqənd şəhərinin 2024-cü ildə "Birliyin mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı qərardır.

Humanitar sahə bizim Birliyin çərçivəsində əsas istiqamətlərdən biridir. Azərbaycan bu sahədə əməkdaşlığımızın inkişafına böyük töhfə verir. Azərbaycanın 2025-ci ildə üçüncü MDB Oyunlarının keçirilməsi üzrə namizədliyini dəstəklədikləri üçün həmkarlarıma minnətdarlığımı bildirmək istərdim.

Əminəm ki, üçüncü MDB Oyunları idman sahəsində əməkdaşlığımızı möhkəmləndirməklə yanaşı, Birlik məkanında uğurlu qarşılıqlı fəaliyyətimizin daha bir nümayişi olacaq. Fürsətdən istifadə edərək, Belarus Prezidenti, hörmətli Aleksandr Qriqoryeviç Lukaşenkonu ikinci MDB Oyunlarının uğurla keçirilməsi münasibətilə təbrik etmək istərdim.

Hörmətli həmkarlar, iqtisadi əlaqələrimizin möhkəmlənməsi müsbət nəticə verir. Keçən il Azərbaycan ilə MDB ölkələri arasında əmtəə dövriyyəsinin həcmi təxminən 30 faiz artıb. Bu il artım 20 faizdən də çoxdur.

Azərbaycan MDB-nin bir çox ölkələri üçün tranzit-nəqliyyat sahəsində etibarlı tərəfdaşdır. MDB-nin bir çox üzv ölkələri Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə Azərbaycanın tranzit imkanlarından fəal istifadə edirlər. Bu iki nəqliyyat dəhlizinin ötürmə qabiliyyətinin genişləndirilməsi üzrə həyata keçirilən və perspektiv layihələr ölkələrimizin nəqliyyat təhlükəsizliyinin möhkəmlənməsi işinə və əmtəə dövriyyəsinin artırılmasına xidmət edəcək.

Bir daha tədbirin yüksək səviyyədə təşkilinə görə Qırğızıstan Prezidentinə təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, sammitin nəticələri gələcəkdə əməkdaşlığımızın möhkəmlənməsinə xidmət edəcək."

Sonra MDB Dövlət Başçıları Şurasının iclası işini geniş tərkibdə davam etdirdi.

Qırğızıstan Prezidenti Sadır Japarov iclasda aparılan müzakirələrin MDB-yə üzv ölkələr arasında əməkdaşlığın inkişafına töhfə verəcəyini vurğuladı. Sadır Japarov MDB-yə sədrliyin Qırğızıstandan Rusiyaya keçdiyini elan etdi.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ölkəsinin MDB-yə sədrliyi dövründə prioritet hədəfləri barədə məlumat verdi. Vladimir Putin MDB Dövlət Başçıları Şurasının növbəti iclasının gələn ilin oktyabrında Moskvada keçiriləcəyini vurğuladı.

İclasda çıxış edən MDB-nin Baş katibi Sergey Lebedev imzalanacaq sənədlər barədə məlumat verdi. Daha sonra sənədlər imzalandı. Bununla da MDB Dövlət Başçıları Şurasının iclası başa çatdı.

Daha sonra Bişkekdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin MDB-nin Fəxri nişanı ilə təltif olunması mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və digər dövlət başçıları tədbirdə iştirak ediblər.

# ”Azərbaycanın Ermənistana qarşı yeni müharibəyə başlamaq niyyəti yoxdur”

***Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov ”Radio France”a müsahibə verib. O, müsahibəsində son vaxtlar Fransanın Azərbaycanla bağlı mövqeyi, Ermənistanla Azərbaycan arasında başlamalı olan sülh danışıqları, regiondakı vəziyyət, həmçinin cinayətkar xunta rejiminin Azərbaycan tərəfindən saxlanılan üzvləri ilə bağlı radionun suallarını cavablandırıb. AZƏRTAC müsahibəni təqdim edir.***



*- Azərbaycan tərəfindən Fransaya qarşı çox ağır sözlər səsləndirilib. Fransanı nədə günahlandırırsınız?*

- 1997-ci ildən bəri Fransa Minsk qrupunun üç həmsədrindən biri (redaktorun qeydi: münaqişənin siyasi həllinə cavabdehdir) kimi vasitəçilik rolunu oynayıb. Fransa həmişə Azərbaycanla Ermənistan arasında kifayət qədər balanslı münasibət saxlamağa çalışıb - əvvəlcə Prezident Jak Şirakla, sonra prezidentlər Nikola Sarkozi və Fransua Ollandla. Lakin əfsuslar olsun ki, son illərdə biz bu balansın pozulduğunu gördük. Fransanın Ermənistanla Azərbaycan arasında asanlaşdırıcı rol oynamaq ambisiyası var. Amma, eyni zamanda, biz mütəmadi olaraq Fransadan Azərbaycana qarşı və Ermənistanın xeyrinə hər cür ittihamlar eşidirik. Onlar bizi ermənilərin Qarabağı zorla tərk etməsində, bizi ”cinayətdə” ittiham edirlər.

Hər şeydən əvvəl, bu, bəyanatlardan kənara çıxan amillərdir. Belə bir qərar var ki, Azərbaycana qarşı olan Ermənistana müharibə materiallarının verilməsi ciddi şəkildə nəzərdən keçirilsin. Ona görə də hazırda Fransanın ”vasitəçi” və ya ”asanlaşdırıcı” kimi etibarlılığı demək olar yoxdur. Bu qərar bizi olduqca təhlükəli vəziyyətə sala bilər. Biz bunu Fransanın Ermənistanı silaha sarılmaqla ölkəmizə yenidən hücuma təhrik etməsi kimi şərh edə bilərik. Biz ərazimizin 20 faizinin qanunsuz işğalına yenicə son qoymuşuq. (redaktorun qeydi: Bu ərazidəki qondarma ”respublika” heç vaxt beynəlxalq səviyyədə tanınmayıb və Dağlıq Qarabağ həmişə hüquqi baxımdan Azərbaycana məxsus olub). Biz bu regionda yeni fəcirələr, yeni müharibə istəmirik. Biz sülh müqaviləsi layihəsinə nail olmaq üçün Ermənistanla danışıqları həqiqətən də bərpa etmək istəyirik və bu sözümüzün üstündəyik. Əgər Ermənistan da iki ölkə arasında sülhün və sabitliyin bərqərar olması üçün bu səylərimizə qoşularsa, biz üzərimizə düşən işi görməyə tam hazırıq. Həmçinin deməliyəm ki, biz Avropa İttifaqının rolunu yüksək qiymətləndiririk. Şarl Mişel Avropa İttifaqı Şurasının Prezidenti kimi danışıqların bərpasına kömək etmək üçün yaxşı iş görüb. Azərbaycan bu gün məhz bu çərçivədə, Avropa İttifaqı ilə üçtərəfli formatda yenidən həll prosesi ilə məşğul olmağa hazırdır.

*- Bu sülh hansı formada ola bilər? Həm İrəvanda, həm də ondan kənar dairələrdə narahatlıqlar var. Yəni, insanların beynində Ermənistanın cənubunda, Zəngəzur dəhlizi ətrafında, həmin Sünik bölgəsində mümkün münaqişə riski haqqında çox düşüncələr var...*

-Sülh müqaviləsində biz ölkələrimizin hər birinin ərazi bütövlüyünə qeyd-şərtsiz hörmətlə bağlı öhdəliyimizi bir daha təsdiq edəcəyik. Biz demək olar ki, 30 ildir davam edən bu düşmənçiliyə son qoyacağıq. Azərbaycanın öz ərazisinə qarşı müharibə edəcəyi ilə bağlı Ermənistanın iddiaları isə tamamilə əsassızdır. Biz Ermənistanın, eləcə də dünyanın bütün digər ölkələrinin ərazi bütövlüyünə hörmətlə yanaşırıq. Azərbaycan da, həmçinin uzun illər ərzində öz ərazi bütövlüyünün pozulmasından əziyyət çəkib.

*-Bizə açıq şəkildə deyirsiniz ki, Ermənistanla Azərbaycan arasında yeni müharibə olmayacaq?*

-Hər halda, Azərbaycanın yeni müharibəyə başlamaq niyyəti yoxdur. Təbii ki, Ermənistan bizə hücum etsə, biz sakit oturmayacağıq. Amma mən inanmıram ki, bu, Ermənistanın marağında olsun. Hesab edirəm ki, bizə, sadəcə olaraq, danışıqlar yoluna qayıtmaq və Avropa İttifaqının sülh prosesini irəli aparmaq istəyindən yararlanmaq, sərhədlərin delimitasiyası, kommunikasiya xətləri haqqında danışmaq lazımdır. Biz buna diqqət yetirməliyik. Azərbaycanla danışıqlara hazır olduğunu bildirən, eyni zamanda, bütün cəbhələrdə diplomatik müharibə aparan Ermənistan kimi ikili oyun oynamaq lazım deyil.

*-Siz diplomatik müharibədən danışırsınız?*

-Bəli, Ermənistan sülhdən danışarkən öz diplomatik korpusunu müxtəlif təsisatlarda, o cümlədən BMT-də azərbaycanlıları ittiham etmək üçün istifadə edir. Fransanın Ermənistana dəstəyi sayəsində bu ölkə dəfələrlə Təhlükəsizlik Şurasına müraciət edib. Amma Ermənistan həm də yeni, tamamilə anti-Azərbaycan və qərəzli qətnamələr qəbul edən Avropa Şurasını, Avropa Parlamentini təşviqdə saxlayır. Bu, diaspor vasitəsilə Azərbaycanı sistemli olaraq nüfuzdan salmaq kampaniyasıdır. Bu, ermənilərin həll yollarını tapmaq üçün real səmimiyyətinin olmadığını göstərir. Cənab Paşinyan həmkarları ilə görüşəndə deyir ki, Azərbaycan Ermənistana hücum etmək istəyir. Amma bunlar iddiadır. Bunun heç bir sübutu yoxdur. Mən onun niyə belə dediyini bilmirəm. Bu ittihamların heç bir əsası yoxdur. Hesab edirəm ki, Ermənistanın müharibədən qaçmasının ən yaxşı yolu real danışıqlara başlamaqdır.

*- Dağlıq Qarabağda demək olar heç bir erməninin qalmadığına və yaxud çox az sayda ermənininin qaldığına görə etnik təmizləmə ittihamlarına nə cavab verərdiniz?*

-Bu yaxınlarda Qarabağda baş verənləri etnik təmizləmə kimi səciyyələndirmək vicdanən doğru deyil. Bu, çox ciddi ittihamdır. Bu, o deməkdir ki, hökumət əhalinin bir hissəsini etnik və ya dini mənsubiyyətinə görə öz ərazisini tərk etməyə məcbur etmək istəyir. Xüsusilə vurğulamalıyıq ki, Azərbaycan sentyabrın 19-da başladığı antiterror tədbirləri ilə yalnız qanuni hərbi hədəfləri hədəfə alıb. Biz separatçıların mövqelərinin harada olduğunu dəqiq bilirdik və dərhal yerli mülki əhaliyə onların hədəfə alınmadığını bildirdik. Onlara dedik ki, narahat olmayın, evdə qalın. Biz heç vaxt mülki infrastrukturu və ya mülki əhalini hədəf almamışıq. Bunu mən demirəm. Oktyabrın 1-də həmin əraziyə həm də BMT missiyası baş çəkib. BMT rəsmiləri hələ də orada olan ermənilərlə, Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri ilə görüşüblər. Onlar sülhməramlı qüvvələrin kontingenti olan Rusiya hərbçilərinin nümayəndələri ilə də danışıblar. Bu, mülki şəxslərin hədəf alınmadığının sübutudur. İyirmi üç saat davam edən bu tədbirlər başa çatan kimi biz oradakı əhaliyə, o cümlədən Bakıdan külli miqdarda humanitar yardımın çatdırılmasına təşəbbüs göstərdik. Qida, dərman... nə lazımdırsa. Elektrik enerjisini bərpa etdik, qaz xətlərini çəkməyə başladıq. Biz onları bu ərazini tərk etmək qərarına yenidən baxmağa çağırdıq. Biz onlara dedik: ”Bu, sizin şəxsi seçiminizdir. Azərbaycanı tərk etməyinizi istəmirik. Amma bunu etsəniz, bilin ki, sizin geri qayıtmaq hüququnuz var”. Bunu necə etnik təmizləmə adlandıra bilərəm?!

*- Amma hələ də doqquz aylıq blokada var idi ki, Azərbaycan hərəkəti qadağan etdiyi üçün oraya ərzaq, dərman və yanacaq keçmirdi.*

- Biz tam blokadadan danışa bilmərik. Beynəlxalq Qırmızı Xaç Komitəsinin tibbi evakuasiya işlərini yerinə yetirmək, əhaliyə lazımi dərman preparatları gətirmək azadlığı var idi. Yolun niyə qismən bağlandığına baxsaq, bunun səbəbi atəşkəs imzalanandan sonrakı iki il yarım ərzində Ermənistanın öz ərazisindən Qarabağa hərbi heyət, minalarla yanaşı, bütün növ silahlar da gətirmək üçün istifadə etməsi olub. Bütün bunlara son qoymaq üçün keçid məntəqəsini qurmalı olduq.

*-Geri qayıtmaq istəyən ermənilərin təhlükəsiz yaşayacaqlarına əmin ola bilmələri üçün hansı təminatlar və ya şərtlər olacaq?*

-Antiterror tədbirləri başa çatdıqdan bir gün sonra biz Azərbaycanın mərkəzi hakimiyyəti ilə oradakı erməni icmasının nümayəndələri arasında dialoqa başladıq. On gün ərzində üç görüş keçirdik. Həyatlarının müxtəlif sahələrində, o cümlədən hər cür sosial, iqtisadi, siyasi, humanitar, dil və dini hüquqlarla bağlı onların gələcəyinə dair baxışlarımızı təqdim etməyə çalışdıq. Bu, açıq şəkildə göstərir ki, Azərbaycan hökumətinin bu insanları hüquqlarından məhrum etmək istəyi yoxdur. Lakin azərbaycanlılarla birgə və dinc yanaşı yaşamaq üçün onlar hakimiyyətin Azərbaycana məxsus olduğunu bilməlidirlər. Onlar ölkəmizin suverenliyini tanımalıdırlar. Artıq bəziləri Azərbaycan vətəndaşı olmaq istəklərini bildiriblər. Düzdür, bu çaxnaşma və stress mühitində ölkəni və ya evini tərk edəndə bir həftədən sonra geri qayıtmağı seçmək asan deyil. Ona görə bəlkə də bir az gözləmək lazımdır ki, bu insanlar Azərbaycanı tərk etmək qərarına yenidən baxsınlar. Onlar geri qayıtmaq istədiklərini bildirdikdə, biz onlarla həqiqətən əlaqə qura bilərik.

*-Sanksiyalardan qorxursunuz?*

-Fransanın bir müddət əvvəl irəli sürdüyü bu ideyanın Avropa İttifaqı ölkələrinin əksəriyyətinin dəstəyini alıb-almadığını bilmirəm. Bu sanksiyalar tam olaraq nəyə cavab olacaq? Azərbaycanın onilliklər boyu davam edən strateji səbrindən sonra beynəlxalq ictimaiyyət, o cümlədən Fransa tərəfindən ona məxsusluğu tanınan suveren ərazisi üzərində öz nəzarətini bərpa etmək istəyi? Hesab etmirəm ki, hüququ bərpa edən ölkəni cəzalandırmaq və ya cəzalandırmağa cəhd etmək lazımdır. Ərazimiz hücuma məruz qalıb və nəinki hücuma məruz qalıb, o, işğal edilib və etnik təmizləməyə məruz qalıb. Bu gün hamı etnik təmizləmədən danışır, amma heç kim Ermənistanın 1990-cı illərin əvvəllərində, ovaxtkı 7 milyonluq əhalinin təxminən 1 milyonunun ya köçkün, ya da qaçqın vəziyyətinə düşdüyü zaman real etnik təmizləmə aparmasından danışmır. Heç kim - nə Fransa, nə də avropalılar Ermənistana qarşı sanksiyalar tətbiq etmək istəyini dilə gətirməyib və heç vaxt onu qınamayıb. Söhbət ikili standartlardan gedir.

*-Sülh danışıqlarında Dağlıq Qarabağın həbsdə olan liderlərinin taleyi müzakirə olunacaqmı?*

-Əvvəlcə onu vurğulamalıyıq ki, silahlarını təhvil verən separatçılara amnistiya elan etmişik. Onların Laçın yolu ilə ərazimizi tərk etmək azadlığı var idi. Amma həbs olunanlara gəlincə, söhbət Azərbaycanın mülki əhalisinə qarşı törədilən dəhşətli zorakılıqlarda iştirakı sübuta yetirilən kiçik bir qrup şəxsdən gedir. Bizdə sübut var. Məhkəmə bunu nümayiş etdirəcək. Bu hərbi cinayətlər üçün heç bir müddət yoxdur və yalnız bu cür insanlar həbs olunur. Onların məhkəməsi zəruridir. Onların azad edilməsi ilə yaxınlarını itirmiş insanlara münasibətdə ədalətli ola biləcəyimizi düşünmürəm. Biz onları sırf xoş niyyət jesti kimi azad edə bilmərik. Çünki hesab edirəm ki, bu münaqişənin bu qədər uzun sürməsinin səbəblərindən biri də cəzasızlıqdır.

*-Ruben Vardanyan üçün də belədir?*

-Bəli, o, terrorizmin maliyyələşdirilməsi ilə məşğul olub. O, Azərbaycanda dinc əhaliyə qarşı terror törədən qrupların yaradılmasını maliyyələşdirib.

Bu gün istintaq təcridxanasında olan insanlar bu münaqişənin ən böyük qırğınlarına görə məsuliyyət daşıyırlar. Bir gecədə 613 dinc azərbaycanlı, o cümlədən uşaqlar, hamilə qadınlar, qocalar azərbaycanlı olduqları üçün qətlə yetirilib. Bu, soyqırımı aktıdır. Düşünürəm ki, bu sözü işlədərkən diqqətli olmalıyıq. Amma sırf düşmən hesab etdiyiniz etnik qrupa mənsub olduğu üçün bir əhalini hədəf seçsəniz, bu, soyqırımı aktıdır. Ona görə də bu tarixə göz yuma bilmərik. Bunlar otuz il bundan əvvəl törədilmiş dözülməz, qəbuledilməz sui-istifadə faktlarıdır.

## Ersin Tatar: ”Qarabağ Zəfərinin memarı Prezident İlham Əliyevlə qürur duyuruq”




“Can Azərbaycan başda olmaqla, Türk dünyasının hər yerində bizimlə birgə olanlara təşəkkürümü bildirirəm. Azərbaycan Prezidenti İlham Əliyevə sonsuz rəğbətimi çatdırıram.” Bu sözləri ölkəmizdə səfərdə olan Şimali Kipr Türk Prezidenti Ersin Tatar ”Şimali Kipr Türk Respublikası Mədəniyyət və Təqdimat Günləri” çərçivəsində oktyabrın 13-də keçirilən tədbirdə səsləndirib.

Azərbaycan xalqına sonsuz sevgisini çatdıran Ersin Tatar xalqlarımızın çox əziyyətlər çəkdiyini bildirib. Diqqətə çatdırıb ki, nəhayət bunlara son qoyulub və ölkələrimiz müstəqillik yolunda irəliləməkdə davam edir.

”Bu il 100 illiyini qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Türk dünyasının müdrik siyasi xadimi, Qarabağ Zəfərinin memarı Prezident İlham Əliyevlə qürur duyuruq.

Şimali Kipr ilə Azərbaycan arasında əlaqələrin genişlənməsi çox vacibdir. Biz müxtəlif sahələrdə əməkdaşlıq etməkdə maraqlıyıq. Bu sahələrdən biri də mədəniyyətdir. Biz hazırkı məqamda bir-birimizə daha yaxın olmalıyıq. Çünki eyni kökə malik xalqın övladlarıyıq”, - deyə Şimali Kipr Prezidenti vurğulayıb.

# Güc və birliyin qələbəsi



2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsində 44 gün ərizində tariximizə qələbələr yazmaqda davam edirdi. Bu qürurlandırıcı xəbərlər xalqımızın həyatında mühüm hadisəyə çevrilirdi. Qələbə ardınca qələbə sorağı.14 oktyabr 2020-ci il. "Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində yazırdı. Həmin gün 14 oktyabr tarixində 30 ilə yaxın Ermənistanın işğalı altında olan əzəli torpaqlarımız Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad olundu və tariximizdə yeni səhifə yazıldı.

2020-ci ilin 13 oktyabr tarixində Prezident İlham Əliyev Türkiyənin "Haber Türk" telekanalına müsahibəsində "Paşinyanın Şuşada sərxoş vəziyyətdə rəqs etməsi və digər təhqirləri, həqarəti Azərbaycan xalqını haqlı olaraq hiddətləndirdi. Biz onun bu hərəkətlərinin heyfini bu gün döyüş meydanında alırıq, əvəzini çıxırıq. Azərbaycan əsgəri döyüş meydanında göstərir ki, kim haqlıdır, kim haqsızdır. Biz gücümüzü, xalqımızın iradəsini döyüş meydanında göstəririk. Paşinyanın digər təxribatları da cavabsız qalmır və qalmayacaq. Azərbaycan xalqının ləyaqəti bərpa olunur. Şəhidlərimizin qanı yerdə qalmır və qalmamalıdır", - deyə bildirmişdir: "Bu gün azad etdiyimiz şəhərlər, kəndlər Paşinyana və onun kimlərə bizim ən gözəl cavabımızdır. O, artıq anladı ki, kim kimdir. Mən ona xəbərdarlıq etmişdim. Mən ona demişdim ki, bu yol sizi fəlakətə aparacaq. Mən demişdim ki, Azərbaycan xalqının ləyaqəti ilə oynamasın, diqqətli olsun, ehtiyatlı olsun. O zənn edirdi ki, dünya erməniliyi onu müdafiə edəcək, o zənn edirdi ki, böyük dövlətlər gəlib onun yerinə vuruşacaq, bu gün də bunu istəyir". Paşinyanın Rusiya Prezidenti Vladimir Putinə bir gündə dəfələrlə zəng etdiyini diqqətə çatdıran dövlətimizin başçısı deyib: "O, telefon zənglərinin bir hissəsi mətbuata verildi, bir hissəsi isə verilmədi. Bizdə məlumat var ki, bu son atəşkəsdən sonra da Paşinyan Putinə telefonla zəng etmişdir. Onun bu hərəkətləri, əlbəttə, göstərir ki, bu adam panikaya qapılıb, təşviş içindədir, özünü itirib. Azərbaycan Ordusu döyüş meydanında düşmənə elə sarsıdıcı zərbələr endirir ki, artıq onlar qeyri-adekvat duruma düşüblər".



30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan bu gün döyüş meydanında uduzduğunu aydın dərk etdiyindən beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını bir daha ortaya qoymuş oldu. Təbii ki, bu və ya digər amillər Azərbaycanı haqq savaşından çəkindirmir və Azərbaycan Ordusu öz torpaqlarının azad olunması məqsədi ilə müharibəsini davam etdirirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müsahibəsi zamanı Ona ünvanlanan "Cənab Prezident, hazırda Ermənistan Azərbaycanın yaşayış məntəqələrini atəşə tutur. Azərbaycan isə əməliyyat zamanı yalnız hərbi obyektləri hədəfə alır, ancaq Qarabağ bölgəsindəki ərazilərdə əməliyyat həyata keçirir. Amma Ermənistan Gəncəni, Mingəçeviri, Bərdəni, mülki əhalinin yaşadığı digər yerləri hədəfə alır. Bundan məqsəd panika, xaos və qorxu yaratmaqdırmı? Siz hazırda Azərbaycan xalqının bu psixologiyasını necə görürsünüz?" sualını belə cavablandırmışdı: "Bu gün Azərbaycan tam başqa bir ölkədir. Bu gün yeni nəsil yetişib. Müstəqillik şəraitində yeni vətənpərvər, həm mənəvi, həm də fiziki cəhətdən güclü insanlar yetişibdir. Eyni zamanda, yaşlı nəsil də bu gün tam başqa bir dünyagörüşünə malikdir. Dövlətimizin güclü iradəsi var, güclü ordumuz var. Məhz buna görə, bu xain hücumlar bizim iradəmizi qıra bilmədi. Erməni vəhşiliyindən ən çox zərər çəkən Tərtər şəhəridir. Tərtər şəhərinə minlərlə mərmi düşüb. Tərtər balaca bir şəhərdir, Gəncə kimi böyük şəhər deyil. Bu gün səhər mənə verilən məlumata görə, 100-dən çox mərmi səhər saat 7-dən indi saat 10-un yarısıdır, 2 saat yarım ərzində mindən çox mərmi Tərtər şəhərinə düşüb. Amma tərtərlilər bir dağ kimi, bir yumruq kimi dayanıblar, heç bir yerə getmirlər və deyirlər, öldü var, döndü yoxdur. Həmçinin, Ağdamda da, Goranboyda da, Ağcabədidə də, cəbhə xəttinə yaxın olan bütün başqa bölgələrdə də belədir. Onlar düşmənlə üz-üzə yaşamağa öyrəşiblər bu xain hücumlar bizi zərrə qədər də yolumuzdan döndərə bilməz. Ermənistanın digər bir məqsədi bizi dayandırmaqdır. Onlar zənn edirlər ki, bu xain zərbələr bizi dayandıracaq. Bizi heç kim dayandıra bilməz. Çünki biz haqq yolundayıq, bu yolu davam edirik və uğurla davam edirik. Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik!"

Vətən müharibəsi dövründə də davam edən Ermənistanın növbəti cinayətləri, mülki əhaliyə qarşı edilən terrorlar çirkin siyasətin məntiqi idi. Belə ki, 2020-ci ilin oktyabrın 10-da Rusiya Federasiyası, Azərbaycan Respublikası və Ermənistan Respublikasının Xarici İşlər nazirləri humanitar atəşkəs elan edilməsi haqqında bəyanat qəbul etmişdi. Lakin Ermənistan Respublikası nəinki buna əməl etməyib, əksinə, oktyabrın 11-də onu ciddi şəkildə pozaraq öz ərazisindən Gəncə və digər şəhərlərimizi "SKAD" tipli raket kompleksindən atəşə tutmuşdu. Bütövlükdə Ermənistanın bu addımı müharibə dövründə mülki əhalinin müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyasının və bu cür silahların mülki əhaliyə qarşı istifadəsini qadağan edən beynəlxalq sazişlərin müddəalarına ziddir. Ermənistanın bu cür silahlarla təchiz edənlər də həmin silahların qanunsuz istifadəsinə görə məsuliyyət daşıyırlar.

Oktyabrın 14-də səhər saatlarından başlayaraq Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulmuşdu. Ermənistanın humanitar atəşkəsi pozmasına baxmayaraq, rəşadətli Azərbaycan Ordusunun hər gün yeni kəndləri və şəhərləri işğaldan azad etməsi bizi Zəfər tariximizə yaxınlaşdırdı. Azərbaycan Qalib xalq olduğunu bəyan etdi.

***Zümrüd BAYRAMOVA***

# Ölkəmizin haqq işinə kölgə salmağa çalışanlar...

Avropa Şurasının Parlament Assambleyası (AŞPA) tərəfindən oktyabrın 12-də Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı həqiqət və faktlardan uzaq, erməni təbliğatının əsas elementlərini təkrarlayan, qərəz və yalanlardan qaynaqlanan qətnamə və tövsiyə sənədi qəbul edilib. Azərbaycanın AŞPA-da nümayəndə heyəti bununla bağlı etiraz bəyanatı yayıb.



Bəyanatda qeyd edilib ki, bu sənədlərdə regionda mövcud olmuş münaqişənin kökündə dayanan, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, onun ardınca ölkəmizə münasibətdə törədilmiş hərbi işğal və Azərbaycan əhalisinin etnik təmizləməyə məruz qoyulması tamamilə diqqətdən kənar buraxılıb. Bu, əslində, Avropa Şurasının Azərbaycana göstərdiyi ədalətsiz yanaşmanın növbəti təzahürüdür.

Azərbaycanın 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin məram və məqsədləri təhrif edilərək, ölkəmizə qarşı əsassız iddialar səsləndirilir. Bu mənada, həmin tədbirlərin Azərbaycana qarşı davam edən hərbi təhdidlərin aradan qaldırılması və qanunsuz hərbi birləşmələrin mövcudluğuna son qoyulmasına yönəldiyi gözardı edilir. Həmçinin Qarabağ regionunun erməni əsilli sakinlərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyası istiqamətində atılan addımlara lazımi qiymət verilmədən, regiondakı gələcək davamlı sülh üçün əlavə maneələr yaradılır. Görünən odur ki, Fransa və Avropanın bir sıra digər ölkələrinin ermənipərəst siyasətçiləri erməni lobbisindən ani dividendlər qazanmaq naminə Azərbaycanın regionda başlatdığı normallaşma prosesinə süni əngəllər törətməyə və ölkəmizin haqq işinə kölgə salmağa çalışırlar.

"AŞPA-da Azərbaycanın nümayəndə heyəti olaraq, ölkəmizə qarşı nümayiş etdirilən bu ədalətsiz yanaşmanı qətiyyətlə rədd edir və bunu Avropa Şurası daxilində demokratik dəyərlərin iflasa uğramasının bariz nümunəsi kimi qəbul edirik", - deyə bəyanatda bildirilir.

# Britaniyalı ekspert: "Qarabağdakı qanunsuz rejim ərazilərdə çox sayda mina basdırıb"



Bu gün minaların bütün növlərinin dünya üçün nəhəng humanitar məsələlərdən biri olması danılmaz faktdır. Onlar hətta münaqişələr başa çatdıqdan sonra da onilliklər ərzində yerin altında qalır. Mən hazırda yaşadığım Belçikada hələ 1918-ci ildə başa çatmış Birinci Dünya müharibəsindən qalan minalar kənd təsərrüfatı sahələrində müntəzəm olaraq tapılır və zərərsizləşdirilir. Əlbəttə, İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə milyonlarla mina var ki, onların da təmizlənməsi uzun müddət çəkəcək.

Bu sözləri AZƏRTAC-a açıqlamasında britaniyalı jurnalist və ekspert Neil Vatson söyləyib.

Britaniyalı ekspertin sözlərinə görə, 28 illik işğal zamanı Xankəndidən idarə olunan qeyri-qanuni və tanınmamış erməni rejimi (işğal altında olmuş ərazilərdə - red.) müxtəlif tipli çoxlu sayda mina yerləşdirib. Bundan əlavə, İkinci Qarabağ müharibəsindən sonra da bir çox beynəlxalq müqavilələrə və 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq, minaların basdırılması davam etdirilib. Əraziyə nəzarət bərpa olunduqdan sonra Azərbaycan Ordusu müəyyən edib ki, həmin vaxtdan sonra da çox sayda mina yerləşdirilib.

"Ermənistan bir daha atəşkəs razılaşmasının müddəalarını pozaraq, mina sahələrinin xəritələrini verməkdən inadla imtina edib. Həm də qeyd etmək lazımdır ki, ən köhnəsi təxminən otuz il əvvəl basdırılmış minalar indi deqradasiyaya uğrayıb və son dərəcə təhlükəlidir. Azərbaycan əvvəldən minalanmış sahələrin xəritələrini əldə etməkdə çətinlik çəkib. Ehtimal edilir ki, həmin xəritələrin dəqiqliyi ən yaxşı halda 20 faizə qədərdir. Minalardan təmizlənmə prosesi başa çatanadək quruculuq, tikinti işlərindən söhbət gedə bilməz. O torpaqların tam məskunlaşdırılması üçün təhlükəsiz şərait yaradılmasına uzun müddət lazımdır. Buna görə də mən minasız dünya üçün BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədini dəstəklədiyimi bildirirəm. Bu məqsəd bəşəriyyətin daha çox rifahı naminə bütün minaların zərərsizləşdirilməsi və istehsalının qadağan olunmasını tələb edir", - deyə o vurğulayıb.

# Qalib Liderin diplomatik müstəvidə qələbəsi

## İLHAM ƏLİYEV: "Bizim sözümüz imzamız qədər keçərlidir, keçərli olduğu qədər həm də dəyərlidir"

Bəli, bu gün sözü imzası qədər dəyərli olan Ali Baş Komandan, Prezident İlham Əliyev cənablarının son 20 illik prezidentlik dövründə çoxəsrlik Azərbaycan tarixində xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Prezidentin dediyi kimi: "Heç kim bizim iradəmizə təsir edə bilməz. Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz". Çünki bu qələbə, uğurlu nəticələr məhz Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "Güclü ordu - güclü dövlət" strategiyasının konsepsiyanın nəticəsidir və bu üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu. Bir sözlə, ötən illər həm də onu göstərdi ki, Prezident İlham Əliyevin sözü imzası qədər dəyərli olan qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir.

Bir sözlə, sözü ilə əməli üst-üstə düşən, imzası qədər dəyərli olan Azərbaycan Prezidenti İlham Əliyev dediyi kimi: "Bizim sözümüz imzamız qədər keçərlidir, keçərli olduğu qədər həm də dəyərlidir". Çüni Qalib Liderimiz...

### NƏYİ, NƏ VAXT VƏ NECƏ ETMƏYİ ÖZÜ BİLİR

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev dəfələrlə çıxışlarında bildirir: "Mən nəyi, nə vaxt və necə etməyi özüm bilirəm". Bəli, dövlət başçımızın qətiyyətinə və prinsipiallığına inanan Azərbaycan xalqının böyük əksəriyyəti şübhə etmirdi ki, Ali Baş Komandan indiyədək bütün vədlərini yerinə yetirib, dediyi sözlərə əməl edib. Və 30 ilə yaxın işğal altında olan torpaqlarımızı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu işğaldan azad etdi.

"Biz artıq bu doğma diyarımızda əbədi yaşayacağıq"-,deyən Ali Baş Komandan, Prezident İlham Əliyev üç il ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb. Və bu gün işğaldan azad olunmuş torpaqlarda görülən uğurlu bərpa-quruculuq işləri göz önündədir. Artıq Xarı bülbül boynunu bükməyib. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı bərpa olunub. "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 20 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev cənablarının 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncamı tarixi hadisədir.



Bəli, dövlət başçımızın söylədiyi kimi: "Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs manea ola bilməz". Bu Qalib Liderin bütün dünyaya növbəti mesajı idi. Düz 30 il düşmən əsarəti altında qalan Qarabaımız Ali Baş Komandan, Prezident İlham Əliyev "Dəmir yumruq" siyasəti altında Müzəffər Ordumuzun rəşadətli əsgər və zabitlərinin şücaəti ilə işğaldan azad olundu, torpaqların sahibləri öz torpağına sahib oldu. Bu gün isə Azərbaycan dövlətinin qarşısında duran prioritet məsələ işğaldan azad edilmiş ərazilərin bərpasıdır. Və dövlət başçımızın hər dəfə işğaldan azad olunmuş torpaqlara səfərləri bir daha göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin işğaldan azad olunmuş əraziləri qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə manea zamandır. Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs manea ola bilməz. Çünki ..

### "BU TORPAQLARIN SAHİBLƏRİ BİZİK - AZƏRBAYCAN XALQIDIR"

Dövlət başçımızın dediyi kimi: "Çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır". Bəli, bu torpaqların sahibi Azərbaycan xalqı olduğu üçün də haqqı, ədaləti, ərazi bütövlüyümüzü bərpa edərək öz torpaqlarımıza sahib olduq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci il noyabrın 8-də Şəhidlər Xiyabanında xalqa etdiyi müraciəti isə bütün xalqımızın Qarabağ həsrətinə məlhəm oldu. Ali Baş Komandanın tarixi müraciətindən: "Dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq".

Qalib Sərkərdə çıxışlarında dəfələrlə vurğulayır ki, bütün illər ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm: "Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Və bu gün artıq mənfur düşmən unutmamalıdır ki, "siyasi gücümüzü artırdıq, bu gün Azərbaycanla hesablaşırlar. Ən azı regional təhlükəsizlik və inkişaf məsələlərində Azərbaycanın razılığı olmadan heç bir təşəbbüs həyata keçirilə bilməz. Deyirəm, ən azı regional, amma, eyni zamanda, bu gün dünya miqyasında bir çox məsələlərdə Azərbaycanın mövqeyi önəmli mövqe kimi sayılır", - deyə dövlətimizin başçısı qeyd edib. Çünki bu gün diktə edən tərəf qalib Azərbaycandır, Qalib Lider Prezident İlham Əliyev cənablarıdır: "Mənim sözüm qətidir, bunu hər kəs bilir, həm Azərbaycanda, həm dünyada, o cümlədən Ermənistanda. Nəyi deyiriksə, onu da edirik. Bir dənə də olsun sözümüz, necə deyərlər, havada qalmayıb, bu söz də havada qalmayacaq. Əgər mən deyirəmsə ki, amnistiyaya baxmaq olar, bu fürsəti də qaçırmasınlar. Onlar bir çox fürsətləri qaçırıblar, bir çox fürsətləri və hər dəfə, necə deyərlər, gərək onların başından vuraydıq ki, özlərinə gəlsinlər".

Çünki Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanların öz elobalarına geri dönəcəklər. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

Bir sözlə, bütün bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük Sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığıdır.

***RƏFİQƏ KAMALQIZI***

# "MDB-nin səmərəli fəaliyyət göstərməsi əhəmiyyətlidir"

## *KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*



"Azərbaycan-Qırğızıstan dövlətləri arasında iqtisadi, humanitar, sosial-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi hər iki ölkənin milli maraqlarına uyğundur və gələcək inkişaf üçün yeni perspektivlər açır". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri vurğulayıb ki, MDB Dövlət Başçılar Şurasının Bişkekdə keçirilən növbəti iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bunu xatırlatmış və MDB çərçivəsində əməkdaşlığın yaxşılaşdırılmasının önəmli olduğunu bildirmişdir.

"Son illər Qırğızıstanla əlaqələr yüksələn xətt üzrə inkişaf etdirilir. Türk Dövlətləri Təşkilatında təmsil olunan dövlətlərin MDB daxilində də münasibətlərin yaxınlaşdırılması, əməkdaşlığın mühüm platformalarının hazırlanması hər iki dövlət üçün söz sahibi olmaq imkanlarını artırır, milli təhlükəsizliyin təmin olunması, iqtisadiyyatın inkişafına zəmin yaradır. Cənab İlham Əliyevin liderliyi ilə Azərbaycan möhtəşəm uğurlar qazanmış, Yaxın və Orta Şərqin, bütün postsovet məkanının ən nüfuzlu və inkişaf edən dövlətlərindən birinə çevrilmişdir. Bu gün dünya ölkələri Azərbaycanla münasibətlər qurmaqda maraqlıdırlar. MDB dövlətlərinin bir araya gəlməsi bu baxımdan əhəmiyyətlidir.

Bişkek səfəri zamanı Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında keçirilən görüş zamanı dövlət rəhbərləri bu fikirdə olduqlarını bir daha bildirmişlər. Dövlətimizin rəhbəri qeyd etmişdir ki, bu ilin həm əmtəə dövriyyəsi, həm sənaye kooperasiyası, həm də nəqliyyat sahəsində əməkdaşlıq üzrə nəticələr olduqca yaxşıdır. Çoxlu layihələr var. Səsləndirilən fikirlər MDB ölkələrinin bir məqsəd uğrunda birgə mübarizə aparılmasına ehtiyacın olduğunu şərtləndirir və əlbəttə ki, keçirilən hər bir görüş, irəli sürülən səmərəli təkliflər və həyata keçirilən tədbirlər birliyin möhkəmləndirilməsinə yönəldilmişdir və bu təqdirəlayiqdir", deyə Tahir Rzayev bildirib.



# Demarş, yoxsa HAY HƏYASIZLIĞI?

**Rusiyaya münasibətdə Ermənistanın mövqeyi demək olar ki, əvvəlki dövrlə müqaisədə tamamilə dəyişib. Antiterror tədbirləri nəticəsində Azərbaycan Qarabağ bölgəsi üzərində suverenliyini tamamilə bərpa etdikdən sonra isə Ermənistanın hökumət dairələri Rusiyaya qarşı daha da kəskin mövqe sərgiləyirlər. İndi erməni xalqının başına gələn müsibətlərə görə günahı Rusiyanın üzərinə yıxmaq planı İrəvanda ön planda durur. Ən gülünc məqam isə odur ki, ermənilər rusları onlara xəyanətdə günahlandırır və xain adlandırırlar. Halbuki, bu zamana qədər olan tarixi faktlar və xronologiyalar hayların özlərinin xəyanətkarlıqlarını təsdiq edir.**

Təqribən iki yüz ilə yaxındır ki, hayların "nazını çəkən" ruslar bu iki əsrə yaxın müddətdə onlar üçün etmədikləri qalmadı, halbuki, indi rusları özlərinə borclu hesab edirlər, amma hansı əsasla belə hesab etdiklərini göstərən, yaxud bunu əsaslandıracaq bir dənə də olsun arqumentləri yoxdur. Tarixi faktlar təsdiq edir ki, məskunlaşdıqları ərazilərdən qovulan köçəri hayları ruslar əvvəlcə Cənubi Qafqazda yerləşdirdilər, hətta məskunlaşmaları üçün əllərindən gələni də etdilər. Hayların Cənubi Qafqazda məskunlaşmasının 1828-ci il Türkmənçay müqaviləsindən sonraya təsadüf etdiyini təsdiq edən tarixi faklar var və bu faktlar təsdiq edir ki, həmin tarixdən sonra onların indiki Ermənistan adlanan, əslində isə, bir zamanlar İrəvan kimi tanınan tarixi Azərbaycan torpaqlarında məskunlaşmaları ruslar sayəsində olub. Bir sözlə, indi yaşadıqları, hətta guya özlərinin hesab etdikləri torpaqlara görə ruslara, Rusiyaya borcludurlar. Üstəlik, hayların həmin o məskunlaşmalarından bu zamana qədər hər istiqamətdə rusların dəstəyini aldıqlarına görə də özlərini onlara borclu saymalıdırlar. Ona görə borclu saymalıdırlar ki, Cənubi Qafqazda məskunlaşdıqları dövrdən bu yana istənilən "ərköyünlüklərini", daha dəqiq desək, saldıqları çaxnaşmaları, törətdikləri əməlləri rusların dəstəyinə güvənərək ediblər və həmin dəstəyin sayəsində özlərini qoruya biliblər.





Ötən əsrin əvvəllərində rus bolşeviklərinin köməyi ilə, ruslara güvənərək soyqırımlar törədən, Azərbaycan ərazilərində müsəlman dini mənsubiyyətli insanların qırğını, soyqırımı kimi yadda qalan 31 mart faciəsinə imza atan ermənilər bundan sonra 70 il də Sovet hakimiyyəti dövründə rusların dəstəyi ilə özlərinə münbit şərait yaradaraq, yenə də müsəlmanların, türklərin kütləvi şəkildə qətli, soyqırımları üçün zəmin hazırladılar. Elə məhz rusların, Rusiyanın dəstəyi ilə də həmin əsrin, ötən əsrin sonlarında yenə də Azərbaycanın Qarabağ iqtisadi rayonuna təcavüz edərək, həmin torpaqları işğal etdilər və işğal zamanı da tarixin qan yaddaşına yazılan soyqırımlar törətdilər. Bunun ardınca da düz 30 ilə yaxım müddət ərzində rusların, məhz Rusiyanın dəstəyi ilə işğal etdikləri torpaqlarda talan ilə məşğul oldular. Bütün dünya ictimaiyyəti də yaxşı bilir ki, bütün mövcudluğu dövründə haylar ruslara arxalanaraq vəhşiliklər ediblər, Ermənistan dövləti də hər zaman Rusiyanın dəstəyini alıb və ümumiyyətlə, indi bu işğalçı ölkə mövcud olduğuna, tarixin arxivinə düşmədiyinə görə Rusiyaya borcludur. Etiraf etməkdən boyun qaçırsalar belə bu faktları bilə-bilə Rusiyaya qarşı əks mövqedə olduqlarını açıq-aşkar bəyan edən ermənilər yumşaq desək, nankorluq edirlər. Rüsvayçı məğlubiyyətlərinə görə Rusiyanı günahkar görən, itgilərinə görə rusları qınayan ermənilər onları xəyanətdə ittiham edərək, xain adlandırırlar və qeyd olunan tarixi faktlar, reallıqlar fonunda bunun nə dərəcədə həyasızlıq olduğunu guya başa düşmürlər və özlərini də qanmazlığa qoyublar. Əslində isə, başa düşürlər, amma bunun əksini nümayiş etdirərək həyasızlıq edirlər və buna elə hay həyasızlığı desək tamamilə yerinə düşər.

Ermənistanın baş naziri Nikol Paşinyanın Qırğızıstanın paytaxtı Bişkekdə keçiriləcək MDB sammitində iştirakdan imtina etdiyi barədə bir neçə gün əvvəl məlumat yayımlayan erməni KİV-lərində həmçinin qeyd olunur ki, xarici işlər naziri Ararat Mirzoyan da MDB sammitində iştirak etməyəcək, öz yerinə də müavinini göndərəcək. Doğrudur, Bişkekdə keçiriləcək MDB sammitində iştirak etməkdən imtina edən Ermənistan sözsüz ki, özü üçün müvafiq bir fürsəti əldən qaçırır və bunun hansı bir fürsət olduğunu nəzərə belə almır, amma ruslar bunu tamam başqa cür qiymətləndirirlər. Daha dəqiq desək, İrəvanın bu sammitdə, MDB sammitində iştirak etməkdən boyun qaçırması ilk növbədə, Rusiya tərəfinə hörmətsizlik kimi qiymətləndirilir, hansıki bunu da ruslar ermənilərə bağışlamayacaqlar. Həm də Rusiya tərəfi Ermənistan hakimiyyətinin belə saymazlıq və hörmətsizlik etməsi ilə ilk dəfə deyil ki, rastlaşır. Hələ 2022-ci ilin dekabr ayında Mirzoyanın öz həmkarları, Lavrov və Bayramovla görüşdə iştirak etmədiyi də rusların yadından çıxmayıb. Mirzoyanın görüşdə iştirak etməməsinə erməni baş nazir Paşinyan hansısa don geyindirməyə, bunun üzürlü səbəb olduğuna rusları inandırmağa çalışsa da sonradan bəlli olub ki, Ermənistanın XİN rəhbəri həmin gün ipoteka müqaviləsini imzalayıb və deməli, heç bir səbəb olmadan görüşdən imtina edib. Yəni, qısa və kobud şəkildə desək, saymazlıq və hörmətsizlik edib ki, bunu da ruslar unutmayıblar. Deməli, bu dəfə də tədbirdə iştirakdan imtina etmək, ümumiyyətlə, Rusiyaya qarşı elə bir etinasızlıq olacaq ki, ənənə halını alan bu vəziyyəti ruslar qətiyyən həzm edə bilməyəcəklər. Artıq hay həyasızlığından rusların tamamilə bezdiyini görmək çətin deyil və Ermənistan hakimiyyətinin məsuliyyətsiz, saymaz hərəkətlərinə Rusiyanın bundan sonra da səbr edəcəyi inandırıcı görünmür.

Ermənistan hakimiyyətinin görüşdən imtina etməsi rəsmi İrəvanın Rusiyaya ünvanlanmış demarşıdır. Bəzi siyasətçilərin, ələlxüsus da rusiyalı politoloqların fikrincə, bununla Ermənistan Qərbə üz tutduğunu məqsədyönlü şəkildə, özü də nümayişkəranı formada Rusiyaya göstərmək istəyir. İrəvanın getdikcə artan anti-Rusiya siyasətinə hələ də dözən, müxtəlif bəhanələrlə özünün azğın forpostunu hər dəfə bir bəhanə ilə "bağışlayan" Moskva bununla erməni cəmiyyətinə bu vaxta qədər reabilitasiya şansı versə də, bu dəfə belə bir niyyətdə olduğu görünmür. Çünki Kremlin ermənilərin siyasətindən narazılığının kifayət qədər ciddi səbəbləri var. Avropa İttifaqının uzunmüddətli "mülki missiyasını" cari ilin əvvəlində, daha dəqiq desək, bu ilin fevral ayında Ermənistana yerləşdirmək kimi "cəsarətli" addım atan rəsmi İrəvan Kremlin səbr kəsasını artıq daşdırıb. Üstəlik, rəsmi İrəvanın məhz Rusiya prezidenti Vladimir Putinin Roma statusunu ratifkasiya etməsi rusları tamamilə qızışdırıb. Əksini fərz etmək mümkün də deyil və ölkə prezidentinin mətbuat katibi Dmitri Peskovun timsalında Rusiya rəsmilərinin fikirləri də təsdiq edir ki, Kreml bu sənədin Ermənistanda ratifkasiya olunmasına, Moskvaya beynəlxalq təzyiq kampaniyasına ermənilərin qoşulması kimi baxır və hay həyasızlığının öz həddini aşması rusları bərk qıcıqlandırıb. Bu nankorluqları, həyasızcasına etdikləri xəyanətkarlıqları qırmızı xətti keçmək kimi qiymətləndirilir Rusiya tərəfindən və rusların qəzəbinə səbəb olan nankorluqlarının, xəyanətlarlıqlarının haylara nəyin bahasına başa gələcəyini heç şübhəsiz ki, yaxın zamanda müşahidə etmiş olacağıq.

İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində erməni baş nazir Nikol Paşinyanın ifadə etdiyi fikirlər də Rusiyanın ciddi narazılığına səbəb olub. Rusiya sülhməramlılarının onlara həvalə edilmiş funksiyanı yerinə yetirmədiklərini, daha dəqiq desək, "Laçın dəhlizi boyunca sərbəst hərəkəti təmin etmədiklərini" deyərək Rusiyanı tənqid etməsi rusları bərk qıcıqlandırıb. Xüsusən də erməni baş nazirin ənənəvi olaraq hər şeydə Moskvanı günahlandırması, hərbi əməliyyatlar zamanı rusların reaksiya verməməsi barədə ittihamlar səsləndirməsi Kreml üçün qəbuledilməz mühakimə hesab olunub və bunun ardınca da, İtaliya nəşrinə verdiyi müsahibədə erməni baş nazirin, Rusiyanın guya Cənubi Qafqazı tərk etdiyini bildirməsi Rusiyada bir reaonans doğurub. "Bu hansı səbəblərdən baş verir? Biz bilmirik. Lakin elə proseslər var ki, təbii, bir gün biz ayılacağıq və Rusiyanın artıq burada olmadığını görəcəyik", deyən baş nazir Nikol Paşinyanın bu fikirlərini Kremlin mətbuat katibi Dmitri Peskovun təkzib etmək məcburiyyətində qalması onu deməyə əsas verir ki, əvvəla Rusiya Cənubi Qafqazda mühüm rol oynamağa davam etdiyini ermənilərə xatırlatmaqla, regionu tərk etmək fikrində olmadığı barədə də haylara ciddi mesaj verir. Digər tərəfdən də belə bir reaksiyanın, cavabın özünü çox gözlətməməsi onu göstərir ki, Kreml artıq Ermənistana barmaq silkələyir və xəbərdarlıq edir. "Rusiya bu regionun tamamilə ayrılmaz hissəsidir, ona görə də heç yerə gedə bilməz. Rusiya Ermənistanı tərk edə bilməz", deyən Kreml nümayəndəsi Peskov təkcə Ermənistana deyil, bu ölkənin sığındığı Qərbə, Qafqazda öz maraqlarını güdən ABŞ, Fransa və Avropa İttifaqı kimi xarici oyunçulara da ciddi mesajlar ötürüb. Bununla yanaşı, Rusiyada yaşayan ermənilərin sayının Ermənistanda yaşayan ermənilərin sayından daha çox olması barədə Dmitri Peskovun "xatırlatması", bunu çox məharətlə, özü də yerindəcə vurğulaması əslində, haylara bir hədə kəsmək deməkdir və Kreml rəsmisinin belə kəskin şəkildə reaksiyası rəsmi Moskvanın səbrinin hansı dərəcədə daşdığını və ermənilərin nankorluğundan, xəyanətkarlığından, hayların həyasızlığından nə dərəcədə bezdiyini göstərir.

Rəsmi Moskva Ermənistan tərəfinin Rusiyaya qarşı davam edən demarşına cavab olaraq, həmin ölkəyə davamlı şəkildə siqnallar göndərir. Amma görünən odur ki, rəsmi İrəvan bu siqnallardan hələ də nəticə çıxarmayıb. Nəticə çıxarmayıb deyə, Qərbin xeyrinə şantaj və siyasi manevr siyasətini davam etdirməkdədir. Hayların məhz elə bu siyasəti Ermənistanın sonda nə ilə və kiminlə qalacağı sualını açıq, cavabsız qoyur. Bütün bunların fonunda rusiyalı ekspertlər hesab edirlər ki, Rusiya qətiyyən Ermənistanı öz başına buraxan, bu ölkəni Qərbə bağışlayan deyil. Onlar birmənalı şəkildə belə qənaətdədirlər ki, haylar nə qədər həyasızlıq etsələr də Rusiya Cənubi Qafqazdakı mövqeyini bundan sonra da Qərbə güzəştə getməyəcək və buna qarşı olanlar "öz paylarını alacaqlar". "Ermənistanın Rusiyaya qarşı qeyri-dost hərəkətləri nümayişkaranə demarşdan, Rusiya Federasiyasını öz tərəfində olan münaqişəyə çəkmək üçün Moskvaya siyasi təzyiq göstərmək cəhdindən başqa bir şey deyil. Ermənistan Rusiyanın pulundan çox asılıdır.

Erməni biznesi Rusiya iqtisadiyyatına çox sıx inteqrasiya edib, ona görə də böyük biznes strukturları Paşinyana sadəcə olaraq imkan verməyəcəklər ki, münasibətləri hər hansı ciddi qırılmaya aparsın", deyən rusiyalı politoloq Aleksey Xlopotov Ermənistanın Rusiyadan "qırıla" bilməyəcəyinə tam əmin olduğunu bildirib. Bir sözlə, hayların nə qədər həyasızlıq etməsindən asılı olmayaraq, Rusiyanın pəncəsindən yaxa qurtara bilməyəcəyi bir reallıqdır və bu qənaət tamamilə məntiqidir. Çünki başda elə baş nazir Paşinyan özü olmaqla, ermənilər bir ağızdan Qərbi dəstəkləsələr də, hər zaman arxalandıqları və dəstəyindən faydalandıqları ruslara qarşı nə qədər həyasızcasına nankorluq, xəyanətkarlıq etsələr də, Rusiyadan qidalanmaları fonunda səyləri əbəsdir və heç zaman müstəqil siyasət yürüdə bilməyən, suveren ölkə olduqlarına kimsəni inandıra bilməyən hayların ruslara qarşı demarşı da mənasız olmaqla, həyasızlıqlarından başqa bir şey deyil.

***İnam Hacıyev***

# "Sözümüz imzamızdır: 20 il"

*Nizami rayonunda fləşmob keçirilib*

**Nizami Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının birgə təşkilatçılığı ilə "Sözümüz imzamızdır: 20 il" devizli fləşmob keçirilib.**



Fləşmobda 1000 nəfərdən artıq gənc Prezident İlham Əliyevin "Sözümüz imzamızdır" ifadəsi, dövlət başçısının imzası və "20" rəqəmi formasında düzülüb.

Fləşmobun əsas ideyasını



Prezident İlham Əliyevin 20 il ərzində xalqa layiqincə xidmət etməsi, Müzəffər Ali Baş Komandan kimi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin edərək əsrin qalib ölkəsinə çevirməsi təşkil edib.

Fləşmob iştirakçıları 20 il öncə - 2003-cü ilin 15 oktyabr tarixində xalqın düzgün qərar verərək ölkədə Heydər Əliyev siyasətinə alternativin olmadığını bir daha təsdiqləməsini canlandırıblar. Azərbaycan xalqının cənab İlham Əliyevə etimad göstərməklə əmin-amanlığın, quruculuğun və inkişafın tərəfində olduğunu nümayiş etdirməsi diqqətə çatdırılıb.

Fləşmob rayon sakinlərində də böyük maraq oyadıb və xoş təəssürat yaradıb.

# Döyüş qabiliyyəti daim yüksələn Azərbaycan Ordusu!



Prezident İlham Əliyev:"Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir"

Azərbaycan xalqı torpaqlarını işğaldan azad etmiş xalq olaraq, qürurla, məğrurluqla yaşayır. Otuz ilə yaxın bir zamanda erməni işğalında olan torpaqlarını azad edən Azərbaycan bu gün yeni bir dövrünə qədəm qoyub. Bütün dünyaya, məsafəsindən, qitəsindən asılı olmayaraq, hər bir kəsə öz böyüklüyünü, gücünü göstərdi. Əlbəttə ki, ordumuzun gücü, xalqımızın qəhrəmanlığı, xalq-iqtidar birliyi və ən əsası da Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün dünyanı təəccübləndirən 44 günlük Vətən müharibəsində Zəfər tariximizi yazdıq. Xüsusilə də, Böyük Sərkərdəlik, Liderlik bacarığına malik dövlət başçımızın rəhbərliyi ilə Milli Ordumuzun qələbəsi qaçılmaz idi. Prezident, Ali Baş Komandan İlham Əliyevin möhkəm iradəsi və böyük Sərkərdəliyi sayəsində torpaqlarımız işğalçılardan azad edildi. Əlbəttə ki, Azərbaycan Ordusunun gücü dövlətin qüdrətinin nümunəsidir. Regionun hazırlıqlı Azərbaycan Ordusu ən müasir tələblərə cavab verən ordudur. Ən çətin anlarda peşəkarlıqla addimlar atırlar. Bu günlərdə Silahlı Qüvvələrimiz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə daha bir missiyanı uğurla yerinə yetirdi. Azərbaycan Ordusu Azərbaycanın Qarabağ iqtisadi rayonunda keçirdiyi antiterror tədbirlərini uğurla başa çatdıraraq separatçıları təslim olmağa məcbur etdi.

Dövlətimizin başçısının sentyabrın 20-də növbəti tarixi qələbəmizlə bağlı xalqa müraciəti hər birimizi qürurlandırdı. Təqribən, bir gün davam edən antiterror tədbirlərinin uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini tam bərpa etdi. Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində qeyd etdiyi kimi, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir.

## QAFQAZ REGİONUNDA ƏN GÜCLÜ ORDU

Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir. "Uğurlu iqtisadi siyasətimiz bizə imkan verir ki, ordu quruculuğuna, yeni silahların, yeni texnikaların alınmasına, yeni döyüş birləşmələrinin yaradılmasına lazımi dərəcədə dövlət vəsaiti ayrılsın" - deyə Prezident çıxışlarının birndə bildirib.

## "BİZİM ÜÇÜN BİRİNCİ VƏZİFƏ ƏRAZİMİZİN BƏRPASIDIR"

Ölkənin yeni hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirilmişdi. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu göstərdi. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Beləliklə, Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevinci yaşatdı.

Qüdrətli Azərbaycan Ordusunun qarşıya qoyulan istənilən vəzifəni - döyüş tapşırığını yerinə yetirməyə qadir olduğu bütün dünyaya nümayiş etdirildi. Eyni zamanda, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin rəşadət və cəsarətini düşmənə əyani surətdə nümayiş etdirdi. Bunlarla yanaşı, Azərbaycan həm Aprel döyüşləri, həm də Günnüt zəfəri çərçivəsində zamanı əldə etdiyi şanlı qələbə ilə, eləcə də diplomatik müstəvidə qazandığı üstünlüklə öz gücünü göstərdi. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağını tezliklə erməni işğalında olan torpaqlarımızda da dalğalandıracağına inamımız sonsuz idi. Nəhayət, həmin zamana şahidlik etdik. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağı edərək qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Bu gün hərbi əməliyyatlar zamanı istənilən nöqtədə düşmənə sarsıdıcı zərbələr endirmək qabiliyyətinə malik güclü ordumuz var.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Möhtəşəm uğurlar Heydər Əliyev siyasətinin nəticəsidir

***Masallı rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib***





**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Masallı rayon təşkilatı oktyabr ayının 13-də Masallı şəhər Heydər Əliyev Mərkəzində tədbir keçirib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.**

Masallı rayon Şəhidlər kompleksi də ziyarət edilib, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirələri ehtiramla anılıb. Sonra "Ulu Öndər Heydər Əliyev və Azərbaycan mədəniyyəti 100" adlı sərgi ilə tanışlıq olub. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bildirib ki, Ümummilli Lider Heydər Əliyev hər zaman Azərbaycanın tərəqqisi uğrunda çalışmış, xalqını üzləşdiyi çətinliklərdən xilas etmiş dahi şəxsiyyətdir. O qeyd edib ki, məhz Ulu Öndərin gərgin əməyi və qətiyyətli siyasəti sayəsində yeni, müasir Azərbaycan dövləti qurulub, ölkəmiz dünya məkanında öz layiqli yerini tutub. Seyfəddin Əliyev Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 illik dövrün Azərbaycan tarixinin ən qüdrətli, müstəqilliyimizin ən güclü, dövlətçiliyimizin ən möhtəşəm quruculuq mərhələsi olduğunu vurğulayıb.

Masallı rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov Ulu Öndərin öz mənalı və zəngin ömrünü bütövlükdə millətinə, xalqına, Vətəninə və dövlətinə həsr etdiyini, müqəddəs amallar uğrunda müstəsna fəaliyyət göstərdiyini diqqətə çatdırıb. A.Əhmədov vurğulayıb ki, Prezident İlham Əliyev 20 illik prezidentlik dövründə sadə vətəndaşların, şəhid ailələrinin, müharibə əlillərinin yanında olub, onlara mütəmadi qayğı və diqqət göstərib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Anar İsgəndərov Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsindən, müstəqil Azərbaycan dövlətinin inkişafı naminə müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, Yeni Azərbaycan Partiyasının qurucusu və memarı, Ümummilli Lider Heydər Əliyevin davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan gündən-günə inkişaf edir, yeni nailiyyətlərə imza atır.

Milli Məclisin deputatı Məşhur Məmmədov çıxışında deyib ki, Ulu Öndər Heydər Əliyev xalqımızın yaddaşında qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Xalqımızın xilaskarı, müdrik dövlət xadimi Heydər Əliyevin əbədiyaşar ideyaları Azərbaycan xalqının dəyərli sərvətidir. Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü Musa Qasımlı çıxışında vurğulayıb ki, bu gün Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında dinamik inkişaf edən, qüdrətli və beynəlxalq nüfuzu getdikcə artan Azərbaycan yeni zirvələr fəth edir. Qeyd edib ki, qazanılan bütün nailiyyətlərin əsasında Ulu Öndər Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi dayanır. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə Fəxri Fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.



# İLHAM ƏLİYEV - Xarizmatik Lider, Fateh Sərkərdə!

**Bir xalqın tarixi inkişafına, güclü dövlətin kriteriyalarına nəzər salsaq görərik ki, böyük uğurların əldə olunmasında, dünyada gedən intibah prosesində ölkələrin qabaqcıl pillələrdə qərarlaşmasında xarizmatik liderlərin rolu həlledicidir. Liderlik bacarığı elə siyasətçilərə məxsusdur ki, onlar mürəkkəb tarixi anlarda xalqının, dövlətinin milli maraqlarını qorumaqla yanaşı, həm də öz ölkəsini davamlı şəkildə inkişaf etdirir, yorulmadan irəliyə doğru apara bilirlər. Məhz bu mənada, Azərbaycan xalqı da çox xoşbəxtdir ki, müasir dünyanın ən nüfuzlu şəxsiyyətlərindən biri olan İlham Əliyev kimi bir Liderə etimad göstərib, onun ətrafında sıx birləşib.**

Məlumdur ki, liderin şəxsi keyfiyyətləri, bacarığı, intellekti onun genindən, böyüdüyü ailə mühitindən, təhsilindən, yaşadığı cəmiyyətdən və s. formalaşır. Məhz İlham Əliyevin də doğulduğu ailə və yaşadığı mühit Onun Lider kimi formalaşmasında böyük rol oynayıb. Xüsusilə də İlham Əliyevin lider kimi yetişməsində daha bir mühüm amil dünya siyasətinin fenomeni, bütün həyatını canından artıq sevdiyi doğma xalqına həsr etmiş Ulu Öndər Heydər Əliyev kimi dahi şəxsiyyətin məktəbindən dərs alması olmuşdur. Ona görə də bu gün Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları, müəyyənləşdirdiyi və Azərbaycançılıq təməlində olan bütün prioritetləri, dövlətçiliyimizin hərtərfli inkişaf konsepsiyası İlham Əliyevin əməli işində özünü göstərir.

2003-cü ilin prezident seçkiləri ərəfəsində Dahi Şəxsiyyət Heydər Əliyev sevimli xalqına etdiyi tarixi müraciətində əminliklə demişdir: ”İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyinizlə və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.



*Bəhruz QULİYEV, ”SƏS” qəzetinin baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru*

Bu sözlər oğul Əliyevin təkcə xalqa təqdimatı deyildi, həm də bir atanın oğula nəsihəti, ona inamı, bacarığı, işgüzarlığı, intellekti, bir sözlə mükəmməl bir şəxsiyyətə etimadı və ümidi idi. Belə də oldu siyasi kursa sadiqliyini nümayiş etdirən gənc lider xalqın dəstəyi ilə yeni yola start verdi.



## 20-il Dövlətçilik uğrunda...

2003-cü ilin 15 oktyabrında keçirilmiş seçkilərdə seçicilərin 76 faizdən çoxu İlham Əliyevə səs verməklə Ulu Öndərə sadiqliyini bir daha göstədi və sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi.

İlham Əliyev 2003-cü ildə Prezident seçilərkən onun ilk vədi suverenliyimizi, ərazi bütövlüyümüzü qorumaq və hər bir azərbaycanlının prezidenti olmaq idi: ”Mən hər bir Azərbaycanlının Prezidenti olacağam...”. O, öz vədinə sadiq qalaraq, hər bir Azərbaycanlının prezidenti olmaqla xalqın sevimli Liderinə çevrildi. Ötən 20-il ərzində müxtəlif iqtisadi proqramlar, sosial proqlamlar həyata keçirildi və dövlətin güclənməsi, xalqın firəvanlığı üçün bütün bacarığını səfərbər etdi.

Prezident İlham Əliyevin siyasi qayəsi və amalı bilavasitə milli-mənəvi dəyərlər və yuxarıda də qeyd olunduğu kimi, azərbaycançılıq ideologiyası üzərində təşəkkül tapdı və bu xüsusda öndə dayanan bir nömrəli məqsəd ölkəmizin inkişafı və tərəqqisi ilə yanaşı, həm də torpaqlarımızın düşmən işğalından azad olunmasında idi. O, Prezident Andı içərkən və hələ Zəfər tarixindən öncə verdiyi sözlərə sadiq qaldı: ”Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam təmin edilməlidir. Işğal edilmiş bütün torpaqlar istisnasız azad edilməlidir. Azərbaycan vətəndaşlari işğal edilmiş bütün torpaqlara, o cümlədən Şuşaya qayıtmalıdır”.




Bəli, bir zamanlar ATA Əliyev Türk dünyasının ayrılmaz hissəsi olan Azərbaycanı düşmənlərin cəngindən xilas etdisə, onu inkişaf, tərəqqi yoluna doğru yönəltdisə, OĞUL Əliyev isə sözü, əməli ilə dedi və etdi. ATA vəsiyyətinə, verdiyi sözə əməl edən İlham Əliyev başladılan işi başa çatdırıb, adını Azərbaycan tarixinə FATEH SƏRKƏRDƏ kimi qızıl hərflərlə yazdı. Artıq bütöv Azərbaycan dövləti və sərkərdəsi ətrafında yumruq kimi bir olan, vahidlik rəmzi daşıyan yenilməz xalq faktoru ən möhkəm dayaqlara söykənərək öz qalibiyyət mövcudluğunu sübuta yetirib.

200 ildir ki, qələbə və zəfər həsrəti ilə yaşayan xalqımız Fateh Sərkərdə - İlham Əliyev reallığı ətrafında Qarabağ torpaqlarımızı, Zəngəzur dağlarımızı yağı düşmən caynaqlarından xilas edərək eyni zamanda, Türk dünyasına zəfər, qələbə şərbətini içirmiş oldu! Müzəffər Sərkərdə İlham Əliyev Şuşanı və digər torpaqlarımızı İŞĞALDAN AZAD EDƏRƏK XALQA HƏDİYYƏ ETDİ. Bu, eyni zamanda doğma vətən torpaqlarımızın azad olunmasını arzulayıb görə bilməyən azərbaycanlıların, vətən müharibəsində canından keçən bütün şəhidlərimizin ruhuna, bugünki və gələcək nəsillərə Fateh Sərkərdə İlham Əliyevin layiqli hədiyyəsidir.

44 günlük Vətən müharibəsinin qalibi olan qüdrətli Azərbaycan dövlətinin, qədirbilən Azərbaycan xalqının və güclü Milli Ordumuzun bir yumruq kimi birləşərək, vahid şəkildə müdrik Sərkərdənin rəhbərliyi ilə göstərdiyi şücaətlər, qəhrəmanlıqlar isə müasir dünyanın yeni tarixini yazdı.

## Stereotiplər kökündən məhv edən SƏRKƏRDƏ

Qısa arayış: Ərazisinin bir hissəsi - 20%-i işğal altına düşmüş, xalqının vətəndaşlarının təxminən 12-13%-i qaçqın və məcburi köçkün vəziyyətinə düçar olmuş, dövlətçiliyi, müstəqilliyi itirilmək təhlükəsi ilə üz-üzə, iqtisadiyyatı dağılmış və iqtisadi potensialı, nizami ordusu olmayan Azərbaycanı dünyada siyasi nüfuza sahib, müzəffər güclü orduya, funksional, stabil inkişaf edən kifayət qədər iqtisadi potensiala, regional və qlobal söz sahibi olan müstəqil, qüdrətli, qalib dövlətə çevirmək sözsüz ki, ardıcıl strateji və düşünülmüş siyasətin nəticəsidir.

Məhz bu konspeksiyanı dərindən araşdırarkən bir daha əmin oluruq ki, İlham Əliyevin strategiyası və mükəmməl siyasi analitik qabiliyyətinə malik olması fonunda ideoloji əsasların bir sıra funksional amilləri dayanır.

ANALİTİK

Əgər Vətən müharibəsinə qədər dünyanın siyasi arenasında dövlətimiz iqtisadi və sosial cəhətdən tərəqqi yolunu tutan dövlət kimi qəbul edilirdisə, Vətən müharibəsindəki Zəfərimizdən sonra Azərbaycan paralel olaraq dünyanın ən aparıcı ordularına məxsus militar - yeni mükəmməl hərbi gücə malik olan dövlətləri sırasında yer aldı. Çünki İlham Əliyevin Sərkərdəliyi və Liderliyi ilə bu vaxta qədər olan stereotiplər kökündən məhv edildi. Azərbaycan xalqı onun ətrafında sıx birləşərək Azərbaycançılıq, milli ideya formalaşması fonunda öz qalibiyyətinə doğru inamla irəlilədi. Artıq bu gün xalqımız, dövlətimiz dünyada layiq olduğu yerdə qərarlaşıb, yüksək tribunalardan başı dik tutaraq həqiqətləri söyləyir. Bütün bunlara görə xalq öz Müzəffər Ali Baş Komandanına, ordusuna minnətdardır!



## STRATEQ...

Təbii ki, qazanılan uğurlar arxasında dayanan daha bir gerçəklik Lider İlham Əliyevin qətiyyətli və müstəqil siyasətidir. Əgər bu gün Azərbaycan müstəqil siyasəti ilə dünyanın siyasi arenasında öz sözünü deyirsə, təşəbbüslərini irəli sürərək onları qəbul etdirirsə bu, həm də dövlətimizin müstəqilliyinin bariz isbatıdır.



Və biz daha Prezident İlham Əliyevin siyasi fəaliyyətində mühüm ştrixləri görməkdəyik - dürüst və dönməz siyasi iradə, xalqa açıq siyasət və xalqla müzakirə, dünya liderləri ilə görüşlərində və müxtəlif platformalarda konkret təşəbbüslər və təkliflər.

Belə bir möhtəşəm liderlik keyfiyyətləri sözün əsl mənasında hər dövlət başçısında olmur və hələ 2003-cü ilin prezident seçkilərində xalqın iradəsi sayəsində dövlətin ali idarəçilik postuna seçilən 42 yaşlı İlham Əliyev əslində o dövrün çətinliklərini bütün məsuliyyəti öz üzərinə götürməsi ilə ilk qətiyyətli addımını atmış oldu. Onun məqsədi Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq sevgisini, Vətən və Xalq məhəbbətini yeni strateji impulslarla bir araya gətirmək, dünyaya əsrarəngiz, mükəmməl bir dövlət təqdim etmək oldu.

## Böyük Azərbaycanlı...

Onu da qeyd edək ki, Azərbaycan tarixinin ən ciddi, həyati əhəmiyyətli, dönüş məqamı və dönüş mərhələsinin yaşandığı bir dövrdə xalqına rəhbərlik, sərkərdəlik etmək missiyası nəsib olmuş İlham Əliyev ən böyük Azərbaycanlı olaraq öz adını qürur tariximizə həkk edib. O, xaraktercə həm islahatçı, həm yeniliklərin mənimsənilməsi və daha da modernləşdirilib tətbiq olunmasında təşəbbüskar və ən əsası - milli-ideoloji dəyərlərimizi mühafizə edən, onu dünyaya məxsusi olaraq təqdim etməyi bacaran LİDERDİR. Əbəs deyil ki, bu gün İlham Əliyev deyərkən düşüncələrdə Şərq və Qərbin mühüm dəyərlərini bir araya gətirən müasir Lider tərənnümü formalaşır. İlham Əliyev bu mənada da Azərbaycançılıq ideologiyasını beynəlxalq aləmə təqdim edərək xalqının öz tarixi milli köklərinə sahib olduğunu sübut edir.

## Hər bir vətəndaşın qürur yeri...

Növbəti qısa arayış: Ərazisinin 20 %-nin işğal, əhalisinin 10%-nin məcburi köçkün halında yaşamaq məcburiyyətində qalma səbəbi müstəqilliyimizə təhdidlər fonunda Azərbaycan dövlətinin yerləşdiyi vacib strateji-geosiyasi mövqedə və neft ölkəsi olaraq tam müstəqil siyasət yürütməsi bugünki dünyanın möcüzələrindəndir. Azərbaycanın vəziyyətində olan və Azərbaycan böyüklüyündə ikinci bir ölkə yoxdur ki, müstəqil siyasət həyata keçirə bilə, həm də müsəlman ölkəsi olaraq!

Və ən nəhayət, İlham Əliyev Qarabağımızın incisi Şuşa şəhərinin azad edildiyi gün qürurla bəyan edən mütərəqqi Azərbaycançıdır! Şuşanı işğaldan azad edən Müzəffər Sərkərdə "Mən ona özüm qədər inanıram" deyən Ulu Öndərin Ata vəsiyyətini yerinə yetirdi - bu vəsiyyətin təməlində Azərbaycançılıq ideologiyasının tarixi məfkurələri dayanırdı!




Bu gün Ulu Öndərin yolunu davam etdirən İlham Əliyev həm də onun irsinin, milli ideyalarının, Azərbaycançılıq təməllərinin və siyasi yolunun uğurla davam etdirilməsi yönündə müstəqil və qətiyyətli siyasətini həyata keçirməsi ilə müstəqil, güclü və qüdrətli Azərbaycan reallığını dünyaya təsdiq və təsbit edir. Qələbədən sonra dünyaya tam yeni bir Azərbaycan, yeni bir lider və sözün əsl mənasında sənəddə və əməldə müstəqil olan ölkə təqdim olunur. Bu gün yeni tarix yazılır, qalib ölkənin qalib vətəndaşının yeni baxışı, təfəkkürü formalaşır və bu təfəkkürdə yeni ideologiya yaranmış olur. Bu müstəqil Azərbaycançılıq ideologiyasıdır. Hər bir vətənsevər və ruhu ilə dövlətinə, ölkəsinə bağlı olan Azərbaycan vətəndaşı onun Liderinin İlham Əliyev olmasından hədsiz qürur duyur!

İlham Əliyev yeni tarix yazmaqla şanlı Azərbaycan Ordusunun Ali Baş Komandanı olaraq yeni bir Xalq qəhrəmanın obrazını yaratmış oldu və bu qəhrəmanın portret cizgiləri çox səlis, incəliklərinə qədər aydın görünür. Əgər zamanında Türk dünyasının fatehi Sultan II Mehmet İstambulu fəth edən sərkərdə kimi tarixə düşübsə, müsir dövrümüzdə Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Türk dünyasını birləşdirməyə, Turan arzularını gerçəkliyə çevirməyə çalışırsa və buna nail olursa, İlham Əliyev faktoru Türk dünyasının vahid və sarsılmaz birliyi istiqamətində qüdrətli və qalibiyyətli güc həqiqətini ortaya qoymaqdadır. Bu, bir irsi türkçülükdür və Atilladan, Əmir Teymurdan, Şah İsmayıldan, Fateh Mehmetdən gələn zəfər sədalarının duyumudur. Onun keçmiş və müasir liderlərdən bir fərqliliyi də, bəlkə də hardasa müəyyən energetik-mistik qanunauyğunluq da var ki, sanki Uca yaradan oğul Əliyevi xarakterik olaraq müasir Azərbaycan coğrafiyası üçün görəvləndirmişdir.

Məqaləmin sonunda ingilis siyasətçisi və dövlət xadimi Uinston Çörçilin bir fikrini xatırlatmaq istərdim: "Dövlət xadiminin siyasi xadimdən fərqi odur ki, siyasətçi gələcək seçkiləri, dövlət xadimi isə gələcək nəsilləri düşünərək fəaliyyət göstərir". Bu gün İlham Əliyev məhz gələcək nəsillər, Türk dünyasının gələcəyi naminə bütün gücünü səfərbər edərək uğur trayektoriyasını cızır və silinməz izlərini qoyur.

# Ümummilli Lider Azərbaycan dövlətinin xilaskarıdır

*Qaradağ rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*





**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Qaradağ rayon təşkilatı oktyabrın 12-də Lökbatan qəsəbəsində yerləşən Heydər Əliyev Mərkəzində tədbir keçirib.**

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev qəlbi daim Azərbaycan ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb. O bildirib ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Bu gün Azərbaycan Respublikasının möhkəm sosial-iqtisadi və mənəvi dayaqlar üzərində durması, xalqımızın demokratik-hüquqi dövlətdə yaşamaq arzularının reallaşması çağdaş tariximizin unudulmaz dühası - Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov qeyd edib ki, Azərbaycan tarixinin bütöv bir dövrü görkəmli dövlət xadimi Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. O, bütün həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edib.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektor əvəzi Vazeh Əsgərov 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Yeni Azərbaycan Partiyasının silsilə tədbirlər keçirdiyini deyib. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətlərinin olduğunu deyən V.Əsgərov dahi şəxsiyyətin ideyalarının gənc nəslə aşılanmasının vacib olduğunu söyləyib.

Elm və Təhsil Nazirliyinin Neft-Kimya Prosesləri İnstitutunun Baş direktoru, akademik Vaqif Abbasov Ulu Öndərin 1969-cu ildə respublika rəhbərliyinə gəldikdən sonra Azərbaycanın neft strategiyasında əsaslı dönüş yarandığını söyləyib. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanarkən Azərbaycanın investisiya qoymağa imkanı olmadığını xatırladan V.Abbasov məhz Ulu Öndərin dünya miqyasında nüfuzunun bu müqavilənin həyata keçirilməsində mühüm rol oynadığını deyib.

YAP Veteranlar Şurasının üzvü, Modern Ailə və İnkişaf İctimai Birliyinin sədri Zərifə Quliyeva söyləyib ki, Heydər Əliyev şəxsiyyəti Azərbaycanın müasir dövlətçilik tarixinin parlaq simasıdır. Xalqımızın yaddaşında silinməz izlər buraxan Ümummilli Lider Azərbaycan dövlətinin xilaskarı, memarı və qurucusudur. Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycanı Prezident İlham Əliyev dünyada güclü və nüfuzlu dövlətə çevirib.

"Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev bildirib ki, Ümummilli Lider Heydər Əliyev milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz işlər görüb. O, Azərbaycan xalqının qəlbində əbədiyaşarlıq qazanıb. B.Quliyev Heydər Əliyevin zəngin irsinin bugünkü uğurlarımızı şərtləndirdiyini xüsusi qeyd edib. Sonra rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara isə üzvlük vəsiqələri təqdim edilib. Tədbir bədii hissə ilə başa çatıb.



## "Azərbaycan ərazisi rəqəmsal radio yayımla əhatə olunacaq"

2027-ci ilə qədər Azərbaycanın bütün ərazisinin tamamilə rəqəmsal radio yayımı ilə əhatə olunması gözlənir. SİA xəbər verir ki, bu, Nazirlər Kabinetinin təsdiq etdiyi "Rəqəmsal radio yayımının tətbiqi və inkişafı üzrə Tədbirlər Planı"nda öz əksini tapıb. Sənədə əsasən, rəqəmsal radioyayıma keçidlə əlaqədar Avropa İttifaqı və digər inkişaf etmiş ölkələrdə DAB+ standartlı rəqəmsal radionun tətbiqinə başlanılması Azərbaycanda da bu standarta keçidlə əlaqədar müvafiq tədbirlərin görülməsini zəruri edib.

Sözügedən keçidin məqsədi radioyayım sahəsində rəqəmsallaşmanın təmin olunması, tezlik resurslarından səmərəli istifadə, ölkə ərazisində müasir və daha keyfiyyətli radio yayımının tətbiqi, yeni növ rəqəmsal informasiya xidmətlərinin təşkili, eləcə də efir məkanının təhlükəsizliyinin gücləndirilməsinə nail olmaqdır. 2019-cu ilin 26 avqust tarixindən etibarən Bakı şəhərində və Abşeron yarımadası ərazisində DAB+ standartında rəqəmsal radionun test yayımı həyata keçirilir.

Tədbirlər Planının icrası nəticəsində 2026-cı ilə qədərrespublikanın şəhərlərinin və rayon mərkəzlərinin, həmçinin magistral avtomobil yollarının təxminən 70 %-nin, 2027-ci ildə ölkə ərazisinin 99,6 %-nin rəqəmsal radio yayımı ilə əhatə olunması nəzərdə tutulur. Prosesin yekunu olaraq ölkə ərazisində rəqəmsal radio yayımına tam keçid təmin ediləcək.

Keçid zamanı rəqəmsal radio ilə təchiz olunmuş nəqliyyat vasitələrinin sayı, DAB+ radioqəbuledici qurğuların satışda kifayət qədər olması, həmçinin əhalinin məlumatlılıq səviyyəsi nəzərə alınacaq. Eyni zamanda rəqəmsal radio avadanlıqların ölkəyə idxalının təşviq edilməsi və yayımçılara dəstəyin göstərilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsi nəzərdə tutulur.

## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.



2023-cü il oktyabr ayının 13-də YAP Göyçay rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Göyçay rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Sonda xatirə fotosu çəkdirilib.

# "Əsrə bərabər 20 il"





13 oktyabr 2023-cü il tarixində YAP Pirallahı rayon təşkilatı və Pirallahı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə ağacəkmə kampaniyası keçirilmişdir. Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanovun, YAP Pirallahı rayon təşkilatı sədri Emil Abasovun, RİH başçısı Aparatının məsul əməkdaşlarının və rayonda fəaliyyət göstərən idarə, müəssisə rəhbərlərinin iştirakı ilə "Nərəkənd balıqyetişdirmə kompleksi"nin yaxınlığındakı ərazidə baş tutan aksiyada 100 ədəd ağac və gül kolları əkilmişdir.

Daha sonra Pirallahı Gənclər Mərkəzində "Əsrə bərabər 20 il" mövzusunda tədbir keçirildi. Tədbirdə Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov, YAP Pirallahı rayon təşkilatı sədri Emil Abasov, Milli Məclisin üzvü Aydın Hüseynov, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev, Pirallahı Rayon İcra Hakimiyyəti başçısı Aparatının və YAP Pirallahı rayon təşkilatının məsul əməkdaşları və Pirallahı Rayon İcra Hakimiyyəti başçısı Aparatının məsul əməkdaşları, Rayon Ağsaqqallar Şurasının üzvləri, rayon ərazisində fəaliyyət göstərən müəssisə-təşkilatların rəhbərləri və Qeyri-Hökümət Təşkilatlarının nümayəndələri, müharibə iştirakçıları və gənc fəallar iştirak etdilər.Tədbir Rayon İcra Hakimiyyətinin foyesində Ulu Öndər Heydər Əliyevin büstü önünə gül qoyma mərasimi ilə başlamışdır.Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra "Əsrə bərabər 20 il" başlıqlı video-çarxa baxılmışdır.Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Emil Abasov bildirdi ki, Ümummilli Liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dinamik inkişaf strategiyasını rəhbər tutan, regionda çox böyük nüfuza malik olan və geniş spektrli vizyon sahibi cənab İlham Əliyevin dövlətimizin başçısı seçilməsi ilə müasir tariximizdə keyfiyyətcə yeni mərhələnin başlanğıcı qoyulub. Bütün sahələrdə köklü dəyişikliklərlə, xalqın rifah halının daimi yaxşılaşdırılması, 44 günlük Vətən müharibəsində parlaq qələbə qazanan Azərbaycanın dünyadakı rolunun yüksəlməsi ilə müşayiət olunan bu mərhələ daxili və xarici siyasi kursumuzda möhtəşəm uğurlarla, nəhəng abadlıq və quruculuq işləri və dünyada bənzəri olmayan sıçrayışlı iqtisadi inkişafla yadda qalıb. Natiq öz çıxışında qeyd etdi ki, Azərbaycanın hərtərəfli və dinamik inkişafı, yeni iş yerlərinin açılması, enerji sahəsi ilə yanaşı, qeyrineft sektorunun tərəqqisinə nail olmaq, milli sahibkarlığın formalaşması və inkişafı, əhalinin aztəminatlı hissəsinin, bütövlükdə isə hər bir vətəndaşın maddi rifah halının yüksəldilməsi, Azərbaycanın milli mənafeyinə cavab verən müstəqil xarici siyasətin yürdülməsi, Ermənistanla, münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində ədalətli həlli, diaspor və lobbiçilik fəaliyyətinin gücləndirilməsi, regional inteqrasiya proseslərinin sürətləndirilməsi vahid siyasi platformaya söykənən çoxşaxəli və geniş miqyaslı bu qlobal strateji xəttin prioritet istiqamətləridir.



Daha sonra millət vəkili, Milli Məclisin "İqtisadi siyasət, sənaye və sahibkarlıq" və "Aqrar siyasət" komitələrinin üzvü Aydın Hüseynov bildirdi ki, Prezident İlham Əliyev düşünülmüş islahatları və müdrik qərarları ilə həyatımıza yeni nəfəs gətirib, Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb. Azərbaycan Prezidentinin siyasətinin mərkəzində insan amili dayanır, amalı qurub-yaratmaq, xalqını daha xoş günə, daha firavan həyata qovuşdurmaqdır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq dövlətimizin başçısının həyat fəlsəfəsidir. Aydın Hüseynov qeyd etdi ki, bu günün Azərbaycan müstəqil bir dövlət kimi regionda və bölgədə etbarlı strateji tərəfdaşdır. Eyni zamanda, ölkəmiz bütün dövlətlərlə əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə yönəlmiş xarici siyasət kursu həyata keçirir.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev qeyd etdi ki, möhtərəm Prezidentimiz İlham Əliyevin müəllifi olduğu çoxşaxəli institusional və digər xarakterli reformalar qısa müddət ərzində idarəetmənin səmərəliliyi və çevikliyinin artmasını təmin etməklə yanaşı, ölkədə vətəndaş məmnunluğuna, xalq-iqtidar birliyinin, milli həmrəyliyin güclənməsinə, ən əsası, Azərbaycan dövlətinin milli gücünün artmasına etibarlı zəmin, əlverişli şərait formalaşdırdı. Həyata keçirilən köklü və əhatəli islahatlar nəticəsində yeni siyasi konfiqurasiyanın yaranması, siyasi dialoq prosesinin dərinləşdirilməsi, vətəndaş cəmiyyəti təsisatının inkişafına xidmət edən addımların milli həmrəyliyin gücləndirilməsinə təkan verdi.

Tədbirdə çıxış edən Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov vurğulamışdır ki, Prezident İlham Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində keçən dövr ərzində Azərbaycan regional və qlobal əhəmiyyətli iqtisadi, siyasi və humanitar layihələrin mərkəzinə çevrilib, bir sıra əhəmiyyətli əməkdaşlıq formatlarının təşəbbüskarı olub. Müasir dövrdə Azərbaycanın beynəlxalq səviyyədə həyata keçirdiyi bərabərhüquqlu və qarşılıqlı maraqlar prinsiplərinə söykənən xarici siyasət strategiyası ekspertlər tərəfindən təqdir olunan model kimi qiymətləndirilib. Ümumilikdə, Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu həmişə öz dinamikliyi, intensivliyi və çevikliyi ilə xarakterizə olunub və daim milli maraqlara söykənib. Daha sonra son dövrdə rayonda görülən böyük quruculuq-abadlıq işlərindən söz açan natiq dövlət başçısının diqqət və qayğısı nəticəsində rayonun əsaslı inkişaf perspektivləri haqqında danışdı. Sonda partiyanın və rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup şəxsə fəxri fərman təqdim olunub.



## Bizi peşman etməyin!..

MƏTANƏT

***Bunu uşaqlar deyir. Dünyadakı bütün uşaqlar müharibə hərislərinə, torpaq acgözlərinə, mənfəət sevdalılarına üz tutub deyir ki, rəhm edin bizə. Sizi and veririk Allaha, rəhm edin. Biz nə üçün siz böyüklərin əlində oyuncağa çevrilməliyik? Nə üçün hər bir müharibədə, münaqişədə qurban biz olmalıyıq? Nə üçün bizə rəhm etmirsiniz? Nə üçün dinc, sakit həyatımızı əlimizdən alırsınız?***

Biz gecənin yarısında atdığınız bombaların səsindən nə üçün qan-bağır olmalıyıq? Nə üçün valideynlərimiz bizi gecənin şirin yuxusundan silkələyərək oyadıb ayaqyalın, çılpaq meşələrə, dağlara, düzənliklərə doğru sürüməlidirlər? Nə üçün yollarda acından məhv olmalıyıq? Nə üçün sizin qurbanınıza çevrilib əzizlərimizə kədər, qəm yaşatmalıyıq? Nə üçün ata-anamızın gözü qarşısında bizə qıyırsınız? Nə üçün bizim gözümüz qarşısında valideynlərimizi min bir işgəncə ilə öldürürsünüz?

Nədir bizim günahımız? Bu dünyaya müharibələrin acısını, fəlakətini yaşamaq üçün gəlmişik, yoxsa siz "əmilərin" arzularına qurban olmaq üçün? Siz hegamon olacaqsınız, xalqları əzib öz niyyətinizə çatacaqsınız deyə, biz nə üçün bu fəlakətləri yaşamalıyıq? Evlərimiz yandırılmalıdır, ata-anamız öldürülməlidir, bacı-qardaşlarımızdan ayrı düşməliyik, aclığa tab gətirə bilməyən həmyaşıdlarımızı gözlərimiz qarşısında itirməliyik?

Nə üçün? Nə üçün biz sizə görə isti yuvamızdan, rahat yatağımızdan didərgin düşməliyik? Harada qaldı qələmlərimiz, şəkil dəftərimiz, oyuncaqlarımız? Bilirsinizmi, onları atam mənə yenicə almışdı. Rəsm çəkəcəkdim. Atama da söz vermişdim ki, onun da şəklini çəkəcəyəm. Lakin siz atamı əlimdən aldınız, o, çəkəcəyim rəsmini görmədən dünyadan köçdü...

O oyuncaq maşını mənə almaq üçün dünən öldürdüyünüz atam düz bir ay işdən sonra əlavə işləmişdi. O gəlinciyi anam mənə almaq üçün neçə günlər evlərdə xidmətçilik etmişdi, bilirsinizmi? Bilməzsiniz siz. Bunların heç birini bilməzsiniz. Çünki siz biz yaşadığımızın bircəsini belə yaşamamısınız.

Maraqlıdır, siz ata deyilsiniz? Oğlunuz, qızınız yoxdur. Bəlkə də var. Varsa, onlar da bizim kimi yazıqdırlar. Sizin yazıq etdiyiniz uşaqların hər biri kimi yazıqdırlar. Yoxdursa, övladınız, bu, lap əla. Yaxşı ki, yoxdur. Olsa idi, bizə yaşatdıqlarınızı onlar da yaşayacaqdı. Biz qədər ağır, məşəqqətlə yaşamasalar da, yaşayacaqdılar. Çünki müharibə heç bir uşaqdan təsirsiz ötmür. Biz ya qurban oluruq, ölürük, öldürülürük, didərgin salınırıq, ya səfalət içərisində yaşamağa məhkum edilirik, aclıqdan dünyamızı dəyişirik, ya da uzaqdan televizor vasitəsilə həmyaşıdlarımızın aqibətini izləyirik. İzlədikcə də psixologiyamız pozulur, zədələnir, uşaq dünyamız yıxılır...

Siz müharibələri davam etdirdikcə, bizi itirirsiniz. İtirmək tək o deyil ki, minlərlə uşaq müharibələrin qurbanı olur. İtirmək həm də yaşaya-yaşaya itirməkdir. Bir uşağın ki, psixologiyası zədələnir, o, ölü kimidir, yaşasa nəyə dəyər...

Ay "əmilər", insafa gəlin, yandırmayın, süngüləməyin kiçik bədənimizi. Dağlamayın sinəmizi. Almayın əlimizdən oyuncaqlarımızı. Almayın ata-anamızı. Salmayın bizi evimizdən uzaqlara...

Ay "əmilər", insaf edin, bəsdir, müharibələrdən bezdik, usandıq. Biri bitir, o biri başlayır. Bir gün müharibəsiz dünyamız olmur. Yetər!

Nə vaxt gözləriniz doyacaq dünya malından? Nə vaxt? Axı bu dünya sizə də qalan deyil. Bir gün bizim kimi, siz də bu dünya ilə vidalaşacaqsınız. Minlərlə, milyonlarla günahsız uşağa etdiyiniz bu sitəmlərə Allah qarşısında necə cavab verəcəksiniz?

Etməyin müharibələr, savaşlar... Qıymayın bizim düzənimizə, nə olar? Dünyamızı qaraltmayın. Bizi dünyaya gəlməyə peşman etməyin, nə olar...

# 90 yaşlı Məmməd Arazla yolayrıcında...

**Payızın güllü-çiçəkli yayı qovub sazağı ilə təbiətə hakim kəsildiyi, durnaların təzəcə qatarlanıb köç etdiyi bir vaxtda gəlmişdi şair bu gəlimli-gedimli, son ucu ölümlü dünyaya. Elə gedişi də həmin mövsümdə oldu... Ömür yolayrıcı iki payızı birləşdirdi şairin... Bəlkə elə buna görə şairlər şairi oldu. Axı payız şairlərin fəslidir...**





Varlığı ilə yoxluğu arasındakı zaman kəsiyində bəli, şairlər şairi adlandırılan Məmməd Arazdan bəhs edirəm. Bu gün 90 yaşı tamam olan Xalq şairindən söhbət açıram. Doğulduğu Şahbuz rayonunun Nursu kəndinə üz tutub:

Kəndim, balacasan, çox balacasan,
Adın yox dünyanın xəritəsində.
Atılıb qalmısan gözlərdən uzaq
Çaylı, baldırğanlı dağ dərəsində.

- deyən şair Nursunu bu çərçivədən çıxarıb nəinki Azərbaycana, özünün adı keçən bütün ölkələrə sığdıran şairdən... Çünki şairlik ruhunu bu kənd vermişdi ona. Çadırdaş, Toxluqaya, Motalqaya, Novlu, Götürgə, Hamar Güney, Haçabənd, Kolarxac, Şahbulaq, Təhnəli bulaq, Damla bulaq, Məzrə düzü - hər biri bir şeiriyyət ocağı olan bu yerləri qarış-qarış gəzib onlardan poetik duyğular almışdı. Bir də ki elə şairlik ruhunu aldığı, bədahətən şeir düzüb-qoşan anası Cahan xanım onun üçün bir poeziya qaynağı idi. Azərbaycan Respublikasının Əməkdar jurnalisti, publisist Flora Xəlilzadə Məmməd Arazla bağlı xatirələrində yazır: "Mənim ruhumda böyük Məmməd Araz var. Məmməd Arazın anası Cahan xanım mənim bibimdir. Təhsil ala bilməsə də, sinədəftər xanım idi. Bizim nəsildə hər kəsin bir şeir dəftəri var. Amma Məmməd Araz nəslimizin Xan Çinarıdır".

Şairin ata ocağı olan köhnə daxmaları, kəndin kəhər atları, həmyaşıdları ilə birlikdə kotan nəğməsinə holavar qatmaları, çəpərdən üstünə qəfil su atan o güləyən qızın unudulmaz baxışları onu əlinə qələm alıb bu sevimli tabloları sözə çevirməyə vadar etmişdi. Və kəndi tərk edəndən sonra illərlə arzuladığı, lakin yuxusuna girməyən kənd yolları, onları gəzib dolaşmaq, bir-birinə düyüb yumaq sarımaq, çoban dostlarına çadır qayalardan papaq, hər bulağından bir gilə götürüb evində bir bulaq düzəltmək istəyi heç vaxt reallaşmayan şair üzünü küskünmüş kimi dağlara tutub:

Bəlkə bu yerlərə bir də gəlmədim,
Duman, salamat qal, dağ, salamat qal.
Dalımca su səpir yoxsa buludlar?
Leysan, salamat qal, yağ, salamat qal!

- deyib kənddəki xatirələrini qələmi ilə paylaşıb, misralarla bölüşdü.

Böyük şairimiz Məmməd Arazdan söz düşəndə öncə insanın nəzərində əsl vətəndaş, sonra poeziya vurğunu bir şair canlanır. Ömrünü Vətəni, xalqı üçün yaşayan, onu şam kimi əridərək Vətənin daşı olmağı özünə fəxr saydı Məmməd Araz. Onun bənzərsiz Vətən sevgisi, bir arzu, bir istəklə:

Vətən mənə oğul desə, nə dərdim?!
Mamır olub, qayasında bitərdim,

- misraları ilə başlayıb,

Azərbaycan - mayası nur, qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan" deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər.

və yaxud:

Nə yatmısan, qoca vulkan, səninləyəm!
Ayağa dur, Azərbaycan, səninləyəm!
Səndən qeyri biz hər şeyi bölə billik!
Səndən qeyri biz hamımız ölə billik!

- kimi misraları ilə milyonlarla insanı Azərbaycanın milli istiqlaliyyətinə, ərazi bütövlüyünə, ümumilikdə isə Vətən sevgisinə çağırışı ilə tamamlanır. Çünki Məmməd Araz istiqlaliyyətimiz uğrunda qılıncı qələmi ilə əvəz edən əbədiyaşar sənətkarlarımızdan biri idi. Bizlər üçün örnək, həm də qürurvericidir ki, böyük şairimizin Vətən sevgisi doğma kəndinə məhəbbətindən başlayaraq Naxçıvanla, sonra isə Azərbaycanla bir oldu:

Sinəmdə o yerin dağ havasıdır,
Qaynar bulaqları qaynar qanımda.
Mənim ürəyimin bir parçasıdır
Doğma Şahbuzum da, Naxçıvanım da.

Məmməd Araz harada yaşamasından, hansı ölkədə səfərdə, istirahətdə, müalicədə olmasından asılı olmayaraq, onun Naxçıvandan dünyaya açılan bir pəncərəsi var idi. Və hər zaman deyirdi:

Mən burdan baxıram bütün aləmə,
Bu yerin qışı da yazımdır mənim.
Axar çaylarına lal sudur demə,
Onlar min nəğməli sazımdır mənim.



Araz şairin təxəllüsü, onun yaradıcılığının ilk "qədəmi", eyni zamanda Vətən, millət sevgisinin başlanğıc nöqtəsidir. Gənc bir şairin bu təxəllüsü seçməsi onun Azərbaycan tarixinin bu həsrət motivlərinə dərin ürək yanğısı ilə yanaşmasından irəli gəlir. O, bəzən Araz kimi coşur - mübarizəyə qalxır, bəzən sakitləşir - millətinin ayrılıq, ürək nisgillərinə qulaq asır, bəzənsə bu sakitlikdə bu həsrətə son qoymaq üçün yollar axtarır. "Qələm gəldi əlimə - Araz gəlir dilimə", - deyən şair bu həsrətini "Bu gecə yuxumda Arazı gördüm", "Arazın nəğməsi", "Araz üstə çinar gördüm", "Arazın işıqları", "Mən Araz şairiyəm" və sair kimi şeirləri və "Araz axır" poeması ilə bölüşür.

Məmməd Araz poeziyasında diqqəti çəkən məqamlardan biri də dağ mövzusudur. İndiyədək Azərbaycan ədəbi janrları əsasında yaranan nümunələrin heç birində arxa, kömək, ucalıq rəmzi olan dağa bu qədər müraciət olunmamışdı. Asan deyil, böyük şəhərlərdə yaşayıb onun ucqarlarındakı dağları bu qədər gözəl vəsf etmək. Bəlkə, bu, təbiətin baş tacı olan dağlara bir coğrafiyaçı yanaşmasından irəli gəlirdi? Axı Məmməd Araz coğrafiya müəllimi idi. Bəlkə də, ulu dədəmiz Qorqudun dağları bizlərə ata kimi təqdim etməsindən, Məmməd Arazın isə bu ata ocağına bağlılığından irəli gəlirdi:

Bu dağlar özəyi, özülü möhkəm,
Şair, qayalara, dağlara söykən!
Dağlar sevgisində bir ulu ata,
Dağlar ərköyünlər atası deyil.
Dağlar dağ oyadan qıyıltıları
Bütün dərələrə paylaya bilir.
Daşı qartal etmək dağlara xoşdur,
Qartalın daşlığı kiçildir dağı!
Ən ağır anında dağlara danış,
Ən ali loğmandır o müdrik qoca.

Şairin mənzili sözün ünvanı idi. Bu ünvanda açılan süfrələrə min bir nemət yox, söz qoyuldu. O süfrənin ətrafına yığılanlar da fərqli, Məmməd Araz ruhuna, sadəliyinə, dünyagörüşünə uyğun insanlar idilər. Onları bir araya yalnız söz toplayırdı, birbirinin ardınca düzülməklə bir millətin dünənindən, bu günündən, dərdi-sərindən, gələcək arzularından bəhs edən söz... Elə buna görə də şair:

Ötəri hay-küydən qulağım batar,
Yalançı köçəri Yalan köçəri.
Açdım ürəyimi, açdım taybatay,
Xoş gördük, doğru söz, Buyur içəri ...

- deyərək doğru, yerində deyilən, boş vədlərdən uzaq olan sözə dəyər verib, mənəviyyatca zəngin insanların cəmləşdiyi evinin qapısını onun üzünə açır. 1933-cü ilin 14 oktyabrından başlanan bir ömür yolunun 2004-cü ilin 1 dekabrında bitdiyi bir yerdə - yolayrıcında "həyatı ilə söhbətləşən" şair:

Mən özüm bilmirəm nəçiyəm, nəyəm.
Tikdiyim bu daxma, hördüyüm budur.
Odası təptəzə, odu köhnəyəm;
Əlimdən bu gəlir, gördüyüm budur

- deyir. Bu, şairin illərlə yazıb-yaratdıqlarını, Azərbaycan ədəbi mühitində fəaliyyətini kiçiltməsi deyildi, insanlığın zirvəsində dayanan bir Vətən oğlunun təvazökarlığı idi. Onun özü-özünü tərifə ehtiyacı da yox idi. Çünki qiyməti verilmiş, dəyəri bilinmişdi.

Ədəbi-bədii irsimizin kamil bilicisi, milli poeziyamızın, xüsusilə də Məmməd Araz yaradıcılığının vurğunu olan Ulu Öndər Heydər Əliyev xalq şairinə "Xalq şairi Məmməd Araz dövrümüzün sənət zirvəsində durur" kimi yüksək qiymət vermişdir. Ümummilli Liderin qayğısı ilə Xalq şairi Məmməd Araz hələ sağlığında Azərbaycanın Əməkdar mədəniyyət işçisi, Əməkdar incəsənət xadimi, Xalq şairi adlarına layiq görülmüş, dövlət mükafatı almış, "İstiqlal" ordeni ilə təltif edilmişdi. Bu görkəmli söz ustadının bu gün də xatirəsi əziz tutulur. Bu dəyərli fikirləri isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında 2013-cü il 27 sentyabr tarixli Sərəncamından oxuyuruq:"Vətənpərvərlik duyğuları ilə zəngin Məmməd Araz yaradıcılığı Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil edir. Şairin yüksək bədii-fəlsəfi ümumiləşdirmələrlə səciyyələnən, lakonik deyim tərzinə malik dərin ictimai məzmunlu lirikası gücünü Vətən təbiətinin gözəlliklərindən, böyük tarixi keçmişimizin və milli ədəbi fikrin tükənməz xəzinəsindən almışdır".

Dövlət tərəfindən Şahbuz rayonunun Nursu kəndində Məmməd Arazın ev-muzeyinin yaradılması isə hər daşının altında Məmməd Araz yaşayan Naxçıvanda şairin ömür yoluna verilən yüksək qiymət oldu. 2014-cü ilin 1 dekabrında - şairin anım günündə açılan muzey bir zamanlar "Bəlkə bu yerlərə bir də gəlmədim, duman salamat qal, dağ salamat qal", - deyən Xalq şairini bütün ruhu ilə Nursuya - daim xəyallarında yaşatdığı doğma Naxçıvanına qaytardı. Bu muzey yüz illərin çinarına bərabərdir. Çünki onun bünövrəsinə tək nəslinin deyil, bütövlükdə, Azərbaycan poeziyasının Xan Çinarı köklənib. Bu muzeyə - uşaqlığının və gəncliyinin ən xoş anlarının, əlyazmalarının, kitablarının, onun haqqında xatirələrin, təltiflərin əbədiləşdiyi bu ünvana illərdir ki, yüzlərlə məmmədsevərlər üz tutur, böyük şairi anır. Həm də dövlətimizin insanlara verdiyi dəyərin şahidi olurlar.

***

Yolayrıcında 90 yaşlı Xalq şairi ilə, bax beləcə, söhbətləşib, yaddaşımın bir küncündə qalanları oxucularla paylaşdım... Paylaşdıqca da düşünürəm ki, bu yolayrıcı şairin ömrünü budünyalı-odünyalı edən şərti bir məkandır. Onun əbədi ünvanı isə bizim qəlbimizdir...

***Mətanət Məmmədova***







# Ulu Öndərin zəngin siyasi irsi bugünkü uğurlarımızı şərtləndirir

## Ağdaş rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib

**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Ağdaş rayon təşkilatı oktyabr ayının 13-də Ağdaş rayon Heydər Əliyev Mərkəzində tədbir keçirib.**

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Ağdaş rayon təşkilatının sədri Əlişah Rəcəbov bildirib ki, Ümummilli Lider Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir.



YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən biri, Azərbaycanın Milli Elmlər Akademiyasının müxbir üzvü, tibb elmləri doktoru, professor Sudeyf İmamverdiyev vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişafına həsr edib. Heydər Əliyevin zəngin irsi bugünkü uğurlarımızı şərtləndirir. Sudeyf İmamverdiyev Ümummilli Liderin milli-mənəvi dəyərlərimizə verdiyi dəyərdən danışıb və bu istiqamətdə görülən işlərə diqqət çəkib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Cavid Osmanov Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki müstəsna yeri və rolundan bəhs edib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizin davamlı inkişaf etdiyi, Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycanın yeni zirvələr qət etdiyi xüsusi vurğulanıb.

Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Tofiq İbrahimov söyləyib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkənin inkişaf strategiyasını müəyyən edib və onun həyata keçirilməsi üçün mühüm addımlar atıb. Heydər Əliyevin müstəqillik dövründə ölkəmizə rəhbərliyi illəri xalqımızın öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Partiya fəalları Mirvari Ağayeva və Rüfət Məmmədov çıxışlarında qeyd ediblər ki, inkişaf yolunda inamla irəliləyən müasir Azərbaycan Ulu Öndər Heydər Əliyevin həyat amalının təntənəsidir.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş inşa-yazı və rəsm müsabiqələrinin qalibləri mükafatlandırılıb. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib.

# MBD ekspertləri: "Ermənistanın taleyi Azərbaycandan asılıdır"

**İrəvanın Bişkekdə keçirilən sammitdə iştirakdan qəti şəkildə imtina etdiyi zaman aldığı poza praktiki olaraq ictimaiyyətin gözü qarşısında sınmaq adlanır. Üstəlik, tədbirdə təkcə baş nazir deyil, ölkənin xarici işlər naziri də iştirak etməyib. Buna görə də Ermənistan açıq şəkildə göstərdi ki, o, danışıqlar prosesinin bu cür irəliləyiş imkanlarına qətiyyətlə məhəl qoymur, MDB-dəki tərəfdaşlarına, o cümlədən sammitin təşkilatçısı Qırğızıstana və ilk növbədə, Rusiyaya etimadsızlıq göstərir.**

Məlumdur ki, Moskvanın Bakı ilə İrəvan arasında dialoq qurmaq üçün konkret planları var idi, xüsusən də, Putinin Bişkekdə həm Əliyev, həm də Paşinyanla ayrı-ayrılıqda, həm də üçtərəfli formatda danışıqlar aparması nəzərdə tutulurdu. Erməni liderinin isə təbii ki, bundan xəbəri var idi. Vəziyyəti Azərbaycan Prezidenti İlham Əliyev çox lakonik və ironik şəkildə ifadə etdi: "Sual yaranır: Ermənistan sülh istəyirmi? Düşünürəm ki, yox, çünki sülh istəsəydi, bu fürsətdən imtina etməzdi. Ermənistanın baş naziri Qranadaya 6 saat uçur, orada Azərbaycansız Azərbaycanın müzakirə olunduğu anlaşılmaz görüşdə iştirak edir, amma 2-3 saat Bişkekə uça bilmir, onun mühüm işləri var". Ola bilsin ki, Paşinyanın sülhün əldə edilməsi perspektivinə münasibəti barədə bundan yaxşı izah ola bilməz.

MDB ölkələrindən olan ekspertlər Paşinyanın qeyri-ciddi Bişkek "qambiti"ni "Caliber" analitik mərkəzinə şərh ediblər. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.

Rusiyalı politoloq Vladislav Gerdinin fikrincə, Ermənistanın baş naziri reallıqdan qopmuş vəziyyətdə olan, aldığı dərsləri öyrənməyən və qəbul etməyən məktəblini xatırladır.



"Paşinyanın başı buludlardadır və özünü çox təcrübəli siyasətçi hesab edir, amma indi göydən enməyə dəyər - axı indi Ermənistanın baş naziri də özünü Qarabağ separatçılarının liderlərinin bu yaxınlarda apardığı kimi aparır. Azərbaycan ermənilərə dialoq, belə demək mümkünsə, sülh razılaşması variantını təklif etdi, lakin onlar ehtiyacı olan tərəfin kim olduğunu tamamilə unudub, bir neçə dəfə prosesi açıq şəkildə pozdular. İlham Əliyevin zarafat etməyi sevməməsi, boş yerə söz atmaması da onlar tərəfindən nəzərə alınmadı. Və biz yaxşı bilirik ki, bu lovğa və təkəbbürlü "qəhrəmanların" sonu hara getdi. Deməli, indi, deyəsən, Paşinyan da bu yolla gedir və belə yanaşmanın ona heç bir xeyir gətirməyəcəyi aydındır", - rusiyalı ekspert qeyd edib.

Onun fikrincə, Qranadaya səfər erməni mediası tərəfindən Ermənistanın bir növ diplomatik "qələbəsi" kimi qəbul edilib və bu, yəqin ki, Paşinyanın başını çevirib, lakin kənardan tamamilə fərqli görünür.

"Məhz Qranadaya səfər İrəvanın siyasətində müəyyən absurdluq nümayiş etdirdi, Bişkek səfərinin ləğvi yalnız bu faktı vurğuladı. Bu prosesin əsas aktoru İlham Əliyev orada olmadığı halda danışıqlara necə ciddi yanaşmaq olar? Bakının qara siyahısına düşmüş iclasda hansısa sənədi necə ciddi qəbul edib imzalaya bilərsən-həmin Bakı ki, gələcək Ermənistan dövlətçiliyinin yeganə təminatçısıdır və onunla zarafat etməmək daha yaxşıdır. Bəzi erməni siyasətçiləri Paşinyanın oxşar siyasi savadsızlığını başqa prizmadan- bir növ ağıllı manevr kimi şərh edirlər. Amma yenə də unudurlar ki, Bakı istəsə, Ermənistanın siyasi tarixində çox şeyə meydan oxuya bilər - həm Azərbaycanın Zəngəzuru məsələsi, həm də Paşinyanın özünün baş nazir kimi legitimliyi. Ermənistan təcili olaraq danışığa gəlməli və uşaq bağçası rejimini söndürməlidir. Mən hələ də ümid etmək istərdim ki, yaxın gələcəkdə Paşinyanın ətrafında Ermənistanın baş nazirini ağıllandıra biləcək şəxslər tapılacaq və ya o, nəhayət, özü-özünə ayılacaq",- V.Qerdin deyir.

Qazaxıstanlı politoloq və iqtisadçı Ruslan Salıxov da Ermənistan liderinin davranışı ilə bağlı analoji şəkildə danışaraq, onun MDB-nin Bişkek sammitində iştirak etməməsinin iştirakçılar tərəfindən çox mənfi qarşılandığını açıq şəkildə qeyd edib.

"Paşinyan davranışı Yanukoviçin, Yuşşenkonun və vaxtilə bilərəkdən və nümayişkaranə şəkildə MDB formatında keçirilən dövlətlərarası tədbirlərdə iştirak etməyən Ukraynanın digər liderlərinin davranışını xatırladır. Açığı, ilk növbədə, Moskvanı qıcıqlandırmaq və Qərbyönümlü kurs



nümayiş etdirmək istəyindən irəli gəlirdi, lakin onlar nəzərə almayıblar ki, bu cür diplomatik təcrübə digər qonşu dövlətləri də incidir. İndi Paşinyan belə gedişlər etməyə başlayır, amma İrəvanın Kiyev kimi oynaya biləcəyini düşünməklə yanılır. O, qətiyyən Kremlin səbrini sınağa çəkməməlidir: Ermənistan heç Ukrayna da deyil. Əgər Kiyevin qərbyönlü kursu ümumilikdə Qərb tərəfindən dəstəklənirsə və hətta Rusiya ilə müharibə də Ukrayna xalqının bu seçiminə təsir edə bilmirsə, Ermənistanla çox fərqlidir. Əgər nəsə baş verərsə, məsələn, hansısa vəziyyətin gərginləşməsi və indi onun fonunda daha da qabarıqlaşan "soyqırımlar" və "blokadalar" məsələsində siyasi avantürizmi baş verərsə, Qərb onun köməyinə gələ bilməyəcək. İsraildə baş verənlər Ermənistanı bir çox ölkələr və hökumətlər üçün şübhəli siyasi subyektə çevirir. Dünya Ermənistansız da problemlərlə doludur, xüsusən, indi separatçı layihənin əbədi olaraq bitdiyi bir vaxtda", - deyə R.Salihov bildirib.

***Tərcümə - Elçin Bayramlı***

# Zəngəzur dəhlizi: bufer zonası yaradılacaqmı?

**Hərbi ekspert: "44 günlük İkinci Qarabağ müharibəsinin sonunda atəşkəs sazişi imzalandı. Hər kəs bəyanata imza atanların ona əməl edəcəyini gözləyirdi. Lakin Azərbaycan sənədə ciddi əməl etdiyi halda, Ermənistan lazımi şərtləri yerinə yetirmədi".**




Bu sözləri Türkiyənin milli müdafiə naziri Yaşar Gülər deyib. O qeyd edib ki, Ermənistanın verdiyi vədləri yerinə yetirməsi, xüsusən də, Zəngəzur dəhlizinin açılması, danışıqların nəticəyönümlü şəkildə davam etməsi sabitliyin bərqərar olmasının yeganə yoldur.




### Yaşar Gülər: "Biz hər zaman olduğu kimi, "bir millət, iki dövlət" anlayışı ilə əziz qardaşımız Azərbaycanın yanındayıq"




Nazir bəyan edib ki, Ankara Azərbaycan və Ermənistan rəhbərliyi arasında yaxın günlərdə İspaniyada keçirilməsi planlaşdırılan görüşdən öncə baş verən prosesləri və danışıqları diqqətlə izləyir: "Biz hər zaman olduğu kimi, "bir millət, iki dövlət" anlayışı ilə əziz qardaşımız Azərbaycanın yanındayıq".

Yaşar Gülərin sözügedən fikirlərini şərh edən hərbi ekspert Ədalət Verdiyevin qeyd etdiyinə görə, türkiyəli nazir bu açıqlaması ilə Ermənistanı regionda sülh və təhlükəsizliyin təmin olunması üçün üzərinə düşən öhdəlikləri yerinə yetirməyə çağırıb.




### Ədalət Verdiyev: "Ermənistan Zəngəzur dəhlizinin açılması ilə bağlı heç bir iş görməyib"

Bu öhdəliklərin böyük hissəsi Vətən müharibəsində və ondan sonrakı dövrdə Azərbaycanın "Dəmir yumruğ"u hesabına həll olunsa da, yerinə yetirilməyənlər də var. "Hələ ki, Ermənistan silahlı birləşmələrini Qazaxın 7 və Naxçıvanın bir kəndindən çıxarmayıb. Digər tərəfdən, Ermənistan Zəngəzur dəhlizinin açılması ilə bağlı heç bir iş görməyib. Bu haqda bəyanatların İspaniyada keçiriləcək görüşdən əvvəl səslənməsi Ermənistan üçün açıq və qəti siqnaldır", - deyən Ədalət Verdiyev hesab edir ki, Yaşar Gülər bu vasitə ilə Ermənistana mesaj yollayıb: "Yəni, əgər Ermənistan üzərinə düşən öhdəlikləri yerinə yetirməsə, Azərbaycan ilə Türkiyənin əlaqəsinin təmin olunması üçün dəhlizinin açılmasına razılıq verməsə və əvvəl olduğu kimi, Naxçıvan, Laçın istiqamətində təxribatları davam etdirə, təbii ki, Azərbaycan daha adekvat, daha təsirli və Ermənistanı anlaya biləcəyi tərzdə addımlar atacaq. Buna heç kimin, o cümlədən, Zəngəzur yolunun açılmasında Ermənistanı dəstəkləyən qüvvələrin də şübhəsi olmamalıdır".

### "Azərbaycanla Ermənistanın arasında bufer zonası yaradılmalıdır"

Hərbi ekspert Ermənistanla sərhəddə bufer zonasının yaradılması vacibliyinə də toxunub. O bildirib ki, Ermənistan güman olunur ki, Azərbaycanı təxribata çəkməklə, danışıqları pozmaq üçün gərginlik yaratmağa çalışır.

Bəs çıxış yolu nədir? Hər dəfə Ermənistan hansısa siyasi təxribat törətmək istəyəndə biz övladlarımızı itirməliyikmi?

"Mən əvvəllər də belə bir təklif irəli sürmüşdüm ki, Azərbaycanla Ermənistanın arasında bufer zonası yaradılmalıdır", - deyən Ədalət Verdiyev hesab edir ki, ermənilərə Azərbaycana qarşı o qədər nifrət aşılanıb ki, əgər bufer zona yaradılmasa, təxribatlar uzun müddət davam edə bilər. Bu baxımdan, qəhrəman Azərbaycan əsgərinin əli hər zaman tətikdədir.

***Afət Tahirqızı***



**İLHAM**

# Qış gəlir ey... qış

Bu gün səhər işə gələndə yaxından-uzaqdan tanıdığım bəzi insanların gözləmədiyim davranışları ilə qarşılaşdım. Kimə salam verdimsə könülsüz cavab verdilər, kefini-əhvalını soruşduqlarım mızıldandılar, düz-əməlli də bilmədim ki, nə dedilər. Biri lap ağını çıxaran hərəkət etdi. Nə olub, niyə qanın qaradır, nəsə olub, - sualıma başını əndrəbadi şəkildə yelləyib, əllərini ölçə-ölçə - görmürsən qış gəlir ey, qış,- deyə bildirdi. Açığı çaşdım, mən də dodağımın altında mızıldandım - nə olsun ki, qış gəlir? Gəlişi mübarək olsun. Üzlərə sevinc, qəlblərə fərəh gətirsin. Həm də fikirləşdim ki, qış gələr hər tərəf ağ örpəyə bürünər, ağlibaslı məsum körpələrimiz ağ çəmənlərə çıxıb qartopu oynayarlar, qar adamı düzəldib şənlənərlər. Tez də xəyallar aləmindən ayılıb, tədricən salam-kəlam etdiyim kasıb təbəqədən olan insanların niyə qanlarının qara olduğunu anlamağa başladım. Başa düşdüm ki, qış fəsli gələndə aztəminatlı ailələrin problemləri də artır. Qapını soyuqlar kəsdirəndə küçələrimiz keçilməz olur, fürsətcil işbazlar ərzaq məhsullarının qiymətlərini bahalaşdırırlar, kasıbın kommunal ödənişləri ödəməkdə çətinlikləri yaranır. Bu baxımdan, qış fəsli bezdirici olur, özü ilə çoxsaylı qayğılar və problemlər gətirir.

Araşdırmalar əsasında təsdiq olunub ki, qış fəslinin qar-çovğunu evlərə daxil olub "tanqo" rəqsinə başlayanda kasıb ailə başçısı kövrək və qayğılı olur. İnanın həmin məqamda dərinə gedib kasıbı çək-çevir etsən hönkür-hönkür ağlayar. Deyərlər ki, "mən tifillərimi qışdan yaza necə çıxaracam?". Hıçqıra-hıçqıra "başıma haranın daşını salım, kommunal ödənişlər ceyran belində, ərzaq məhsulları qan-qan deyir, banklar da bir tərəfdən nəfəsimizi kəsib", - deyə söylənər. Səsi eşidilsə Allaha yalvarıb, dua edər ki, "nə olar, ay Allah, il boyu yay olsun". Nə də olsa yayda ucuz mer-meyvə var, "Azəriqazın" təbii qazına da bir o qədər ehtiyac yoxdur, elektrik enerjinin limiti də vecinə deyil, küçələrin tozlu-torpaqlı olması da kasıbın kefinə acı soğan doğramır. Hətta bəzən elə şeşələnir ki, evində hazırladığı biş-düşdən götürüb, meşəyə gedir və ailə-uşaqları ilə dincəlir. İnsanlar tanıyıram ki, həmin məqamda o dərəcə də özünü xoşbəxt hesab edir ki, sayı-hesabı bilinməyən şəkillər çəkdirib, onları tik-tokda, facebook-da və digər sosial şəbəkələrdə paylaşır. İzləyənlərdə elə güman edirlər ki, meşə, çay və ya dəniz kənarında dincəlib hadisə yerindən partapart şəkil paylaşan hansısa imkanlı bəxtəvərdir. Kasıb hissə o dərəcədə qapılır ki, qarşı aylarda onu hansı çətin imtahan, keçilməz sədd gözlədiyini qafasına yerləşdirə bilmir. Elə güman edir ki, dənizdə çimib, meşədə gəzib, cır mer-meyvə ilə qarnını doyurmaq kefi tükənməyəcək. Ancaq və lakin zaman öz oxu ətrafında fırlanır və şkalanın oxu qış fəslini göstərir. Bu zaman kasıbın qara günləri başlayır.

"Azəriqaz" elə toy-büsat qurur ki, kasıb soyuq mənzilində istilənmək üçün atlanıb, düşməklə müxtəlif rəqsləri göstərməkdən başqa çarəsi qalmır. Bu yandan da işıqlar tez-tez sönür, suyun verilişində fasilələr yaranır, çölə çıxıb, işə və ya bazar dükana getmək istəsən nəqliyyat problemi ilə üzləşirsən. Beləcə saflıq və gözəllik rəmzi kimi tərənnüm edilən qarın dadını çıxar bilmirsən və qeyri-ixtiyarı o fikri səsləndirirsən "qışın gəlişini və qarın yağmasını istəmirəm, qoy həmişə yay olsun". Lakin tarixin təkərini geri döndərmək mümkün olmadığı kimi, zamanın da gərdişini dəyişmək mümkünsüzdür. Qışa hazır olun... Tabeliyindəki işçiləri çörəklə imtahan edən idarə, müəssisə rəhbərləri kimi digər böyük vəzifə mənsubları da insanları bahalı və keyfiyyətsiz təbii qazla soyuqdan dondurmaqdan az da olsa vicdan əzabı çəkə bilməzlər. Çünki onların özləri kimi, qəlbləri də daşlaşıb.

# Görünməz qəhrəmanlar: kənd qadınları

*15 Oktyabr Beynəlxalq Kənd Qadınları Günüdür*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb*

**Birləşmiş Millətlər Təşkilatı tərəfindən qadınların kənd təsərrüfatı istehsalında, resurslardan davamlı istifadədə, ərzaq istehsalı və təhlükəsizliyində əhəmiyyətli payına əsaslanaraq elan etdiyi Beynəlxalq Kənd Qadınları Günü, yaxud Qadın Fermerlər Günü 2008-ci ildən etibarən hər il oktyabrın 15-də qeyd olunur.**

Beynəlxalq Kənd Qadınları Günü ideyası ilk dəfə 1995-ci ildə Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilən IV Ümumdünya Qadınlar Konfransı zamanı qadınların səlahiyyətlərinin artırılması və onlara hörmət edilməsi ideyası kontekstində müzakirə edilib. Oktyabrın 16-sı Ümumdünya Ərzaq Günü kimi qeyd olunduğundan kənd qadınlarının kənd təsərrüfatı, ərzaq istehsalı və ərzaq təhlükəsizliyinə verdiyi töhfənin tanınması üçün oktyabrın 15-nin Beynəlxalq Qadın Fermerlər Günü kimi qeyd olunması təklif olunub.







### Qadın fermerlərin iqtisadiyyatda rolu

Həm dünyada, həm də ölkəmizdə kənd təsərrüfatı istehsalının və kənd həyatının davamlılığının təmin edilməsində ən mühüm rolu kənd qadınları oynayır. Ancaq istər iqtisadi, istərsə də sosial baxımdan kənd qadınları cəmiyyətdə layiq olduqları sosial-iqtisadi mövqeyə çata bilmirlər. Bunun arxasında duran ən mühüm amil kənd həyatında qadınların kişilər kimi istehsalçı və ya fermer kimi görünməməsidir.

Kənd təsərrüfatı işlərində adətən, qadınlar kişilərin köməkçiləridir. Baxmayaraq ki, kənd təsərrüfatı işlərində kişilər qədər əməkləri var, amma qadınların əksəriyyəti özlərini fermer kimi görmürlər. Bundan əlavə, gündəlik ev işləri, həyətyanı sahənin əkib-becərilməsi əsas işdən əlavə qadınların təbii vəzifəsi kimi görülür. Daha aydın desək, bütün günü əkin sahələrində, tarla və bostanlarda işləyən qadın evə qayıtdıqdan sonra da həm evdə, həm də həyətyanı ərazidə təsərrüfatla məşğul olur.

Xüsusilə, qadınların istehsal prosesində fermer kimi görünməməsi, qazanılan gəlirin qiymətləndirilməsi zamanı qadın əməyinin hesablanmaması kənd təsərrüfatı işlərində qadınların iştirakını getdikcə azaldır.

Qadınların fermerdən çox evdar qadın kimi görünməsi onların əməyinin rəsmi statistikada yer almamasına səbəb olur. Halbuki evdar dediyimiz hər kəndli qadın bir təsərrüfat idarə edir. Qadınlar kənd həyatında əvəzolunmaz əhəmiyyətlərinin fərqində deyillər. Xüsusilə, bir çox inkişaf etməmiş və inkişaf etməkdə olan ölkələrdə qida istehsalı, qida məhsullarının mühafizəsi və marketinq bütünlüklə qadınların üzərinə düşür.

Dünyada 500 milyondan çox kənd qadını yoxsulluq həddinin altında yaşayır. Afrikada ərzaq ehtiyaclarının 60-80%-i kənd qadınları tərəfindən istehsal olunur, Asiyada düyü əkinçiliyinin 50%-dən çoxu qadınlar tərəfindən həyata keçirilir, sənayesi inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı işlərinin 30%-i qadınlar tərəfindən həyata keçirilir. Afrikanın bəzi yerlərində qadınlar ailə başçılarının 60%-ni təşkil edir, Afrikada içməli su və yanacağa olan ehtiyacın 90%-i qadınlar tərəfindən qarşılanır və Afrikada əsas qidalar tamamilə qadınlar tərəfindən emal olunur.




### Assosiasiya sədri: "Kənd qadınları haqqında çox stereotiplər var"

Azərbaycan Kənd Qadınları Assosiasiyasının sədri Gülbəniz Qənbərova bildirir ki, Assosiasiya 2018-ci ildə Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə yaradılıb və bu Assosiasiyanın yaradılmasında məqsəd kənd qadınlarının, regionların sosial və iqtisadi inkişafına olan töhfəsini artırmaq və onu dayanıqlı etmək olub: "Kənd qadınlarının istər sosial, istər iqtisadi inkişafa olan töhfəsini artırmaq üçün onların cəmiyyətə inteqrasiyası lazımdır, onların evdən çıxıb hansısa bir işlə məşğul olması, hansısa bir tədbirə, hansısa iştirakını təmin etmək lazımdır, onların qərarvermədə iştirakının olması lazımdır.

Kənd qadınlarının əsas problemi onların cəmiyyətə zəif inteqrasiya olunmasıdır və bunun da çox səbəbləri var. Kənd qadınları haqqında çox stereotiplər var və o stereotiplərin yaranmasının da səbəbi kənd qadınlarının cəmiyyətdən kənarda qalması, cəmiyyətin qaynar məsələlərinə onların müdaxilə edə bilməməsidir. Biz bunun çıxış yolunu onda görürük ki, kənd qadınlarının bacarıqları artırılmalıdır".

Assosiasiya sədri bildirir ki, bunun üçün biz çox təşəbbüslər irəli sürüblər: "Bu təşəbbüslərdən biri də kənd qadınlarının rəqəmsal bacarıqlarının artırılmasıdır. İndi zəmanəmiz dövrümüz, rəqəmsallıq dövrüdür. Onlar rəqəmsal aləmdən kənarda qaldıqca ictimaiyyətə qoşula bilmirlər. Kənd qadınları həm təsərrüfat, həm də təsərrüfatdan kənar, qeyri-təsərrüfat biznesləri ilə məşğul olurlar və bu bizneslərin inkişafı üçün, onların dayanıqlı olması üçün onların genişləndirilməsi üçün də inteqrasiya lazımdır. Onların əlaqələri olsun və o əlaqələr vasitəsilə onlar məhsul bazara çıxartsınlar, onlar satış eləsinlər və bütün bu işlərdə də məqsəd odur ki, onlar öz ailələrinə iqtisadi dəstək göstərsinlər."

Müsahibimiz deyir ki, 2021-ci ildən Kənd qadınlarının rəqəmsal gücləndirilməsi kampaniyasına başlayıblar və bu kampaniya çərçivəsində bir çox kəndlərdə bir çox qadınlara qadın qruplarına rəqəmsallıq təlimləri verilib: "Müxtəlif şirkətlərdən smartfonlar, dizüstü kompüterlər rəqəmsal avadanlıqlarla kənd qadınlarını təchiz eləməyə çalışırıq ki, onlar şəbəkələrə çıxa bilsinlər, elektron ticarətə çıxa bilsinlər. İndi kənd qadınlarının inkişafını ləngidən də onların necə deyərlər, rəqəmsal bacarıqlarının zəif olmasıdır".

### Kənd qadınları kollektiv təsərrüfat yaradıblar

Gülbəniz xanım deyir ki, kənd qadınları özləri özlərinə iş qururlar, bir-birinə dəstək olurlar: "Təsəvvür edin, qadınlar qrup şəklində yığışırlar. Onlar belə təsərrüfatla məşğul olanda kənddəki çox sterotipləri qırırlar. Qadınlar var ki qrup şəklində bir ildə 630 ton tərəvəz istehsal ediblər. Məsələn, Bərdənin Böyük Göyüşlü kəndində Fatimə qadın qrupu var. Sonra Goranboyun Boluslu kəndində Şəfa qadın qrupu var. 23 Rayonda 56 qadın inkişaf və müəssisə qrupları yaratmışıq ki, onlar kollektiv bizneslərlə məşğul olurlar və bu onların həyatını dəyişir.

Kollektiv şəkildə məşğul olanda həm ailədə söz-söhbət olmur, həm də onlar bir-birinə dəstək olaraq bu işi görürlər və çox da böyük uğurları olur. Məsələn, ailədə gənc qadın səhər istəyir ki, getsin tarlada işləsin, tutaq ki, tərəvəz əksin, satıb gəlir əldə etsin. Təbii ki, ona deyəcəklər ki, sənin tək nə işin var tarlada, bir təhlükə ola bilər. Amma onlar qrup şəklində gedirlər. Səhər bir-birini səsləyirlər, toplaşırlar, çox şən halda tarlaya gedirlər. İşlərini görürlər, həm də bir-biri ilə ünsiyyətdə olurlar".



### Fermer qadınlar azdır

Qadınlar dünya kənd təsərrüfatında çalışan işçilərin 43%-ni təşkil edir. Onlar dünyada sosial-iqtisadi davamlılığın açarıdır, inkişaf prosesləri üçün əhəmiyyətli və əvəzolunmazdırlar. Hər nə qədər təsərrüfatdakı böyük əməkləri gözəgörünməz olsa da, onların çəkdikləri zəhmət sayəsində ailə təsərrüfatları genişlənir, inkişaf edir.

Hazırda kəndlərdə təsərrüfatla məşğul olan ailələrdə ailə təsərrüfatının davam etdirilməsi məsələsi, əsasən, oğlan övladların üzərinə düşür. Bunun da səbəbi qızın evdə müvəqqəti olduğunu düşünmələri, qızların ata evinin təsərrüfatına faydalı olmayacağını hesablamalarıdır ki, nəticədə qızlar oxumursa ailə qurmağa və ər evində təsərrüfat işləri ilə məşğul olmağa sövq edilir.

Qadınlar kənd təsərrüfatında fəal rol oynamağa, ümumiyyətlə, inamlı və həvəslidirlər. Onlar hesab edirlər ki, passiv həmcinsləri bu sahədə fəal olsaydılar, kişilərdən daha uğurlu olardılar. Bizim xalqımızın yaxın tarixində əmək qəhrəmanı olmuş onlarla qadın fermerimiz, pambıqçı, traktorçu, kombaynçılar olub ki, kənd təsərrüfatının bir çox sahəsində onların öncüllüyü ilə ciddi yenilik və nailiyyətlər əldə edilib.

Hazırda ölkəmizdə heyvandarlıqla məşğul olan təsərrüfatlarda qadınların üzərinə düşən yük böyükdür. Heyvan mənşəli məhsulların qadınlar tərəfindən hazırlanaraq satıldığı bu evlərdə qadınlar heyvanların baxımı və sağılmasında da fəal rol oynayırlar. Ev təsərrüfatlarının şəxsi istehsalı üçün salınan bağlar, meyvə bağları və orada yetişdirilən məhsullar ümumiyyətlə qadınların himayəsindədir.

Alın təri ilə torpağa can, əllərinin qabarı ilə ailə büdcəsinə töhfə verən bütün qadınların günü mübarək!

**Lalə Mehralı**

SƏS
14 oktyabr
2023-cü il

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# "WhatsApp" yazışmaları hansı halda məhkəmədə sübut kimi təqdim edilə bilər?

*Hüquqşünas məsələyə aydınlıq gətirdi*



"Qanunla icazə verilən hallardan başqa, gizli yolla əldə edilmiş səs və ya video yazılardan sübut kimi istifadə oluna bilməz". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib. Onun sözlərinə görə, Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsinə əsasən hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır: "Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir.

Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər. Azərbaycan Respublikası Mülki prosessual qanunvericiliyinin 76.3-cü maddəsinə əsasən qanunu pozmaqla əldə edilmiş sübutlardan istifadə olunmasına yol verilmir".

Fariz Əkbərov sözlərinə belə davam edib: "Mülki Prosessual Məcəlləsinin 95-ci maddəsinə görə elektron və digər daşıyıcılar üzərində səs və ya video yazılar təqdim edən və ya onların tələb olunması barədə vəsatət qaldıran şəxslər həmin yazıların nə vaxt, kim tərəfindən və hansı şəraitdə yazılmasını göstərməyə borcludur. Qanunla icazə verilən hallardan başqa, gizli yolla əldə edilmiş səs və ya video yazılardan sübut kimi istifadə oluna bilməz.

Yalnız əməliyyat-axtarış fəaliyyətinin subyektləri "Əməliyyat-Axtarış fəaliyyəti haqqında" qanunun 10-cu maddəsinə görə məhkəmə qərarı əsasında telefon danışıqlarına qulaqasma, texniki rabitə kanallarından və digər texniki vasitələrdən informasiyanın çıxarılması, insanların güdülməsi, əşya və sənədlərin tədqiqi kimi əməliyyat-axtarış tədbirləri tətbiq edə bilərlər. Şəxsi yazışma məlumatları yalnız onların ünvanlandığı şəxslərin razılığı ilə açıq məhkəmə iclasında açıqlana bilər. Göstərilən qaydalar şəxsi xarakterli məlumat daşıyan səs və video yazıların tədqiqində də tətbiq olunur.

İki tərəf arasında olmuş yazışmalar qeyri-qanuni formada əldə olunan sübutlar sayılmır. İlk əvvəl diqqət edilməli nüans odur ki, səs və video formatındakı sübutları məhkəməyə flash (flaş) kart və ya CD/DVD formatına yazaraq və mütləq prosesə sədrlik edən hakimin adına yazılmış ərizə (sübutların iş materiallarına əlavə olunması haqqında) ilə birlikdə təqdim etmək lazımdır. Yazı formasındakı yazışmaları isə Screenshot edərək, yəni çap edərək kağız formatında da təqdim etmək olar. Şəxs tərəfindən əqdin qarşı tərəfinin bildirdiyi iradə ifadələrini əks etdirən danışıqların həmin münasibət barəsində yaranan hüquqi mübahisənin həllində istifadə olunması öz-özlüyündə şəxsi toxunulmazlıq hüququna qəsd kimi qiymətləndirilə bilməz.

Ancaq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 12 aprel 2021-ci il tarixli qərarına əsasən, həmin danışıq və yazışmalar əqdin tərəfləri üçün sirr deyilsə və mahiyyət etibarı ilə aralarındakı hüquqi münasibətlə bağlı bir-birlərinə yazılı mətn halında çatdırdıqları iradə ifadələrindən və bildirişlərindən fərqlənmirsə bu sübütlar şəxsi toxunulmazlıq hüququna qəsd kimi qiymətləndirilə bilməz. Bu baxımdan başqa şəxslə deyil, birbaşa əlaqədar tərəflər arasında olan danışıqların mülki mübahisənin həlli zamanı istifadə edilməsi Mülki Prosessual Məcəllənin 76.3-cü maddəsi ilə nəzərdə tutulan hallara aid edilə bilməz".

***A. Vəli***

# Verratti PSJ-dən niyə ayrılıb?



Marko Verratti 11 il çıxış etdiyi PSJ-dən ayrılmasının səbəbini açıqlayıb. "Football İtalia" nəşrinin yazdığına görə, italiyalı yarımmüdafiəçi Paris klubunun yeni baş məşqçisi Luis Enrike ilə danışdıqdan sonra bu qərara gəldiyini bildirib: "Lusi Enrike ilə danışdım və mənə onun planlarının bir hissəsi olmadığımı dedi. O, böyük məşqçidir, buna hörmət edirəm. Enrike sadəcə mənə dəyişiklik etmək istədiyini dedi. Uzun illərdir PSJ-də olduğumu, yeniliyə ehtiyac yarandığını bildirdi. Mənim üçün hadisələr heç vaxt təsadüfən baş vermir".

Qeyd edək ki, 30 yaşlı futbolçu 2012-ci ildən PSJ-də oynayırdı. O, ötən ay Qətərin "Əl-Ərəbi" klubuna keçib.

# "5-6 yaşa qədər uşaqları qəbiristanlığa aparmağa ehtiyac yoxdur"

*PSİXOLOQ AÇIQLADI*

**Onun sözlərinə görə, yaxşı olar ki, uşaqlar dəfn mərasimlərində iştirak etməsin: "Eləcə də uşaqları uzun müddət və tez-tez qəbiristanlığa aparmaq da düzgün deyil".**



Psixoloq sözlərinə belə davam edib: "Getmədən öncə uşağa məlumat vermək önəmlidir. Həmçinin, qəbiristanlıqda böyüklərin davranışı önəmlidir. Yəni, böyük həddən artıq emosionallıq yaşayırsa, özünənəzarəti itirirsə, nəzərə alsın ki, bu zaman uşağa mənfi təsir edir. Yəni, uşağın məzarlığa gəlib-gəlməməyi yox, biz böyüklərin oradakı yanlış davranışı onda travma yarada bilər. Uşağa model olmağımız vacibdir. Məsələn, həmin insan haqqında xoş xatirələr bölüşmək, gül qoymaq, söhbət etmək və s.".

***Ayşən***



# Bakıda oktyabr ayında 24 dərəcə isti olacaq...

Oktyabrın 14-nə gözlənilən hava proqnozu açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Cənub-qərb küləyi səhər şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 8-13° isti, gündüz 16-21° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 70-80%, gündüz 40-50% olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-13° isti, gündüz 19-24° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-12° isti olacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**